# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# VI SESSİYASI İCLASININ

# PROTOKOLU № 70

*Milli Məclisin iclas salonu.*
*27 aprel 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 105 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 102 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Məzahir Məhəmməd oğlu Pənahov**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Rövzət Afət oğlu Qasımov**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Ramiz Hilal oğlu İbrahimov**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Elmar Eldar oğlu Məmmədov**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Sevinc Qurban qızı Abdullayeva**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Hüseyn Məmməd oğlu Paşayev**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Fuad Musa oğlu Cavadov,** Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Nailə Şahmərdan qızı Əsgərova**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**İlham Sabir oğlu Məmmədov**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Arifə Ağaverdi qızı Muxtarova**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Elçin Abuzər oğlu Xələfov**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Qabil Əhməd oğlu Orucov**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Bəxşeyiş Məmməd oğlu Əsgərov**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Tofiq Eldar oğlu Həsənov**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Almas Əlisultan qızı Qəhramanlı**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Etibar Cəfər oğlu Quliyev**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Mikayıl Rəhman oğlu Rəhimov**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**İlkin Zaur oğlu Şahbazov**, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizəd.

**Elnarə Eyyub qızı Mustafayeva**, Mərkəzi Seçki Komissiyasının əvəzedici üzvlüyünə namizəd.

**Züriyə Ruslan qızı Qarayeva**, Mərkəzi Seçki Komissiyasının əvəzedici üzvlüyünə namizəd.

**Aysel Zaur qızı Cəlilova**, Mərkəzi Seçki Komissiyasının əvəzedici üzvlüyünə namizəd.

**İlqar Əlizadə**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri.

**Həsən Kazımzadə**, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyi müdirinin müavini.

**Toğrul Əliyev**, Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini.

**Tural Feyzullayev**, Azərbaycan Respublikası Mərkəzi Bankının baş direktoru.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin və əvəzedici üzvlərinin təyin edilməsi haqqında.
2. "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası ilə əlaqədar təşkilati tədbirlər və maliyyə məsələləri barədə əlavə Saziş"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.
3. "Azərbaycan Respublikası Hökuməti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi arasında Ev Sahibi Ölkə Sazişi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.
4. "Azərbaycan Respublikası Hökuməti ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.
5. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
7. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Təhsil haqqında" və "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
8. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. Maliyyə icarəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, “Müflisləşmə və iflas haqqında”, “Taxıl haqqında”, “Beynəlxalq xüsusi hüquq haqqında”, “Tütün və tütün məmulatı haqqında”, “Dövlət rüsumu haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Banklar haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında”, “Çayçılıq haqqında”, “Ailə kəndli təsərrüfatı haqqında”, “Atçılıq haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “Pambıqçılıq haqqında”, “İcbari sığortalar haqqında”, “Lisenziyalar və icazələr haqqında”, “Kənd təsərrüfatı kooperasiyası haqqında”, “Elm haqqında”, “Kredit büroları haqqında”, “Nağdsız hesablaşmalar haqqında”, “Daşınar əmlakın yüklülüyü haqqında”, “Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında” və “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin və əvəzedici üzvlərinin təyin edilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Siyavuş Novruzov, Mübariz Qurbanlı, Elşən Musayev, Hikmət Məmmədov, Əli Hüseynli, Günay Ağamalı, Fəzail İbrahimli

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.36 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**2. "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası ilə əlaqədar təşkilati tədbirlər və maliyyə məsələləri barədə əlavə Saziş"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zaur Şükürov, Səməd Seyidov, Aydın Hüseynov, Siyavuş Novruzov, Aydın Mirzəzadə, Məlahət İbrahimqızı, Ceyhun Məmmədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**3. "Azərbaycan Respublikası Hökuməti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi arasında Ev Sahibi Ölkə Sazişi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Pərvanə Vəliyeva

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**4. "Azərbaycan Respublikası Hökuməti ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Zaur Şükürov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və “Narkoloji xidmət və nəzarət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Soltan Məmmədov, Əhliman Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və “Terrorçuluğa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Arzu Nağıyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Təhsil haqqında” və “Minatəmizləmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Azər Əmiraslanov, Anar İsgəndərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Soltan Məmmədov, Hicran Hüseynova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**9. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**10. Maliyyə icarəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Əli Hüseynli, Tahir Rzayev, Anar İsgəndərov, Zahid Oruc, Vüqar Bayramov, Qüdrət Həsənquliyev, Sevil Mikayılova, Vasif Qafarov, Samir Vəliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**11. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "Taxıl haqqında", "Beynəlxalq xüsusi hüquq haqqında", "Tütün və tütün məmulatı haqqında", "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Çayçılıq haqqında", "Ailə kəndli təsərrüfatı haqqında", "Atçılıq haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Pambıqçılıq haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Elm haqqında", "Kredit büroları haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Cari məsələlərin müzakirəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

***MİLLİ MƏCLİSİN İCLASI***

*27 aprel 2026-cı il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 102 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, xahiş edirəm, gündəliyə də münasibət bildirəsiniz. Gündəlik sizə paylanılıb. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəliyimiz də qəbul olundu. Gündəliyin məsələlərinə keçirik.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə bu gün 11 məsələ var. Gündəliyin 1-ci məsələsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin və əvəzedici üzvlərinin təyin edilməsi haqqında qərar layihəsidir.

Hörmətli deputatlar, bildiyiniz kimi, Mərkəzi Seçki Komissiyası

üzvlərinin səlahiyyət müddəti başa çatmışdır. “Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinə əlavələr edilməsi haqqında” Konstitusiya Qanununa əsasən Milli Məclis komissiyanın yeni tərkibini formalaşdırmalıdır. Seçki Məcəlləsinə uyğun olaraq, Mərkəzi Seçki Komissiyasının 18 üzvünün namizədlikləri aşağıdakı qaydada təqdim edilməlidir:

6 nəfərin namizədlikləri Milli Məclisdə çoxluq təşkil edən siyasi partiya tərəfindən;

6 nəfərin namizədlikləri heç bir siyasi partiyaya mənsub olmayan, yəni müstəqil deputatlar tərəfindən;

6 nəfərin namizədlikləri isə Milli Məclisdə azlıq təşkil edən siyasi partiyalar tərəfindən.

Bununla birlikdə, hörmətli həmkarlar, Seçki Məcəlləsinə görə, Mərkəzi Seçki Komissiyasının 3 nəfər əvəzedici üzvünün namizədlikləri də eyni qaydada Milli Məclisə təqdim edilməlidir. Artıq bütün lazımi prosedurlar icra olunmuş və namizədlər müəyyən edilmişdir.

Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin qərarı ilə Mərkəzi Seçki Komissiyasının 6 nəfər üzvünün və 1 nəfər əvəzedici üzvünün, heç bir siyasi partiyaya mənsub olmayan, yəni müstəqil deputatların yığıncağının qərarı ilə Mərkəzi Seçki Komissiyasının 6 nəfər üzvünün və 1 nəfər əvəzedici üzvünün, habelə Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları – Vətəndaş Həmrəyliyi Partiyasını, Ədalət, Hüquq və Demokratiya Partiyasını, Azərbaycan Demokratik İslahatlar Partiyasını, Böyük Quruluş Partiyasını, Azərbaycan Demokratik Maarifçilik Partiyasını, Milli Cəbhə Partiyasını, Böyük Azərbaycan Partiyasını, Azərbaycan Milli İstiqlal Partiyasını, Ana Vətən Partiyasını, Respublikaçı

Alternativ Partiyasını Milli Məclisdə təmsil edən deputatların yığıncağının qərarı ilə Mərkəzi Seçki Komissiyasının 6 nəfər üzvünün və 1 nəfər əvəzedici üzvünün namizədlikləri Milli Məclisə təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizədlər hamısı buradadırlar.

Onu da qeyd edim ki, hörmətli həmkarlar, Seçki Məcəlləsinin tələbinə uyğun olaraq, Milli Məclisdə heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) deputatların təqdim etdiyi namizədlərdən biri Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının nümayəndələri ilə, digər bir namizəd isə azlıq təşkil edən siyasi partiyaların nümayəndələri ilə razılaşdırılmışdır.

Hörmətli deputatlar, Milli Məclisin qərar layihəsi sizə paylanıb. Kim isə bununla bağlı çıxış etmək istəyirmi?

Yazılanlar var, mən onlara söz verəcəyəm.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri və qonaqlar. Ərazi bütövlüyümüzün və suverenliyimizin təmin olunmasından sonra Mərkəzi Seçki Komissiyasının təzədən formalaşması yeni dövrdə mühüm hüquqi-siyasi hadisədir. 1990-cı illərdə torpaqlarımızın işğala məruz qaldığı və hakimiyyət institutlarının böhran vəziyyətinə düşdüyü ağır zamanlarda seçki institutlarının fəaliyyətinin təşkili milli dövlət quruculuğunun ayrılmaz tərkib hissəsinə çevrilmişdi.

1995-ci ildə yeni Konstitusiyanın qəbulu ilə Ulu Öndər Heydər Əliyev xaosdan hüquqi dövlətə keçidi təmin etdi, Qarabağ dalğasında siyasi meydanlara çıxan və torpaqlarımızın itirilməsində müəyyən məsuliyyət daşıyan qüvvələri sivil mübarizəyə gətirməyə nail oldu. Nəticədə silahlı

hakimiyyət çevrilişi cəhdləri iflasa uğradı. Xalqımızın azad və ədalətli şəkildə iradəsini ifadə edən güclü seçki institutlarının yaradılmasını, cümhuriyyət və sovetlərdən sonra milli dövlətçiliyimizi kənardan diktə etmək formulunun qarşısı alındı.

Təəssüflər olsun ki, müstəqilliyimizin ilk illərində ölkəmizdə tüğyan edən qanunsuz hərbi birləşmələrin, kriminal silahlı qrupların və xarici kəşfiyyat orqanlarına xidmət edən siyasi qüvvələrin hakimiyyət uğrunda mübarizəsi dövlət institutlarını iflic etmişdi.

Məhz belə qanunsuzluq şəraitində legitim dövlət hakimiyyəti orqanlarını qurmaq üçün MSK-nın düzgün təməllər üzərində formalaşması siyasi sabitliyin təmin olunmasında və dağıdıcı qüvvələrin qarşısının alınmasında mühüm rol oynadı. Xüsusi ilə müxtəlif beynəlxalq təşkilatlar tərəfindən ölkəmizə demokratiya adı altında irəli sürülən, lakin xarici dövlətlərin üsul-idarəsinin idxalına, siyasi maraqlarına uyğun qüvvələri hakimiyyətə gətirməyə xidmət edən kənar müdaxilələrə son qoyuldu.

Yaxşı xatırlayırıq, 1998-ci ilin oktyabrında Ulu Öndər Heydər Əliyev seçkilərdə bütün siyasi qüvvələrə bərabər imkanların yaradılması, seçki institutlarının yalnız hüquqi deyil, həm də siyasi baxımdan etimad qazanması üçün əsas müxalif partiya rəhbərlərinə birbaşa və açıq müraciət etdi. Belə qətiyyətli addım, cəmi 5 il əvvəl hakimiyyət böhranı nəticəsində iqtidarı tərk edən qüvvələri sivil və bərabərhüquqlu mübarizəyə çağırmaq yalnız xalqın güclü dəstəyinə arxalanan liderə məxsus ola bilərdi.

Ulu Öndərin ali məqsədi millətimizin iradəsinin azad, ədalətli və şəffaf şəkildə nümayişini təmin edən mexanizmi bütün tərəflərin qəbul etməsi idi. Lakin 2000-ci illərin əvvəllərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, xüsusi ilə emissar Jerar Ştudman seçki komissiyası

üzvlərinin üçdə ikisinin səsinin bir siyasi qüvvədən asılı olmamasını nəzərdə tutan, zahirən paritet, lakin mahiyyətcə seçki sistemini və beləliklə, dövlət hakimiyyəti orqanlarının formalaşmasını mümkünsüz edən məkrli plan irəli sürdü. Belə bir strukturda qərar qəbul etmək və konsensus tapmaq qeyri-mümkün idi.

Azərbaycan öz seçki institutlarını xarici siyasi mərkəzlərin gizli planlarından, inqilabi ssenarilərindən qorumaq üçün daha güclü və işlək model tapmağı bacardı. 2003-cü ildən sonra qəbul edilən qərarlar və hüquqi tədbirlər, aparılan islahatlar seçki sistemini daha dayanıqlı, idarəolunan və milli maraqları qətiyyətlə müdafiə edən bir səviyyəyə çatdırdı.

Əvəzində ATƏT-in Demokratiya İnstitutunun, faktiki Minsk qrupunun və Venesiya Komissiyasının göstərdiyi yolla gedən Ukrayna və Gürcüstan kimi ölkələr nəinki ağır dövlətçilik böhranları ilə üz-üzə qaldılar, üstəlik, daha böyük müharibələrə və qlobal savaşlara cəlb olundular.

Azərbaycan milli mənafelərinə uyğun yol seçərək təhlükəli modellərin tətbiqindən imtina etdi və institusional böhranların qarşısını aldı. Brüsseldən və Strasburqdan hakimiyyət formalaşdırmaq, əslində, torpaqlarımızın işğal altında saxlanması demək idi.

Zaman göstərdi ki, Vətən müharibəsində ölkəmizi Zəfərə aparan güclü lider İlham Əliyevin xalqın iradəsi ilə Prezident seçkilərindəki qələbəsi ən düzgün, ədalətli yol oldu və seçkilərdəki qalibiyyət millətimizə Qarabağ Zəfərini bəxş etdi. Ölkəmizə Strasburq demokratiyasını təklif edənlər və millətimizin səsini tanımayanlar faktiki torpaqlarımızın işğalçıları ilə eyni vaxtda məğlub oldular.

Əlbəttə, seçkilər genişmiqyaslı və rəqabətli bir prosesdir. Ümumxalq kampaniyalarında milyonlarla seçici, minlərlə namizəd və onlarca partiya iştirak edir. Yekunda siyasi məğlub tərəfin əks rəyləri və etirazları başadüşüləndir, lakin hüquqi və qanuni yoldan çıxmağa əsla əsas yoxdur.

Ərazi bütövlüyümüzün və suverenliyimizin təmin olunmasından sonra Azərbaycanın bütün coğrafiyasında hakimiyyət institutlarının formalaşması və azad torpaqlarda seçkilərin keçirilməsi seçki institutlarımızın da qələbəsidir.

Prezident İlham Əliyev suverenliyimizin paytaxtı Xankəndidə 2024-cü ilin fevralında səs verməklə uzun illər ərazimizdə ikinci separatçı rejim, iki parlament və digər paralel hakimiyyət institutlarına son qoyulduğunu da dünyaya nümayiş etdirdi.

Yekunda, beynəlxalq təhlükəsizlik sisteminin çökdüyü bir şəraitdə Azərbaycan dövləti seçki institutlarına və millətimizin mənafelərinə xidmət edən komissiya üzvlərinə yenidən etimad göstərməklə siyasi prinsiplərində ardıcıl olduğunu sübut edir. Ona görə də Milli Məclisin müstəqil deputatları irəli sürülən namizədlərə müsbət səs verəcəkdir.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Zahid müəllim.

Mən bundan öncə eşitdim, deputat Eldar Quliyev çıxışların 5 dəqiqə olmasını təklif etdi. Elədir, Eldar müəllim? Hamı 5 dəqiqəyə razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 5 dəqiqəyə qədər. Çox sağ olun.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli qonaqlar. Ölkəmizdə hərtərəfli inkişaf, tərəqqi

nəticəsində Azərbaycanda seçki sistemlərinin də formalaşmasının, təkmilləşməsinin, o cümlədən siyasi sistemin möhkəmlənməsinin şahidi oluruq. Atılan hər bir addım – istər siyasi partiyaların maddi-texniki təminatının həyata keçirilməsi, istərsə də seçki komissiyalarının fəaliyyəti üçün yaradılan şərait onu göstərir ki, Azərbaycanda azad, ədalətli, demokratik seçkilər keçirmək üçün vacib qurumlar formalaşıbdır və bu qurumların formalaşmasında da Milli Məclis özünün aparıcı rolunu həyata keçirir.

Milli Məclis Azərbaycan cəmiyyətinin güzgüsüdür. Burada qeyd olundu, həm heç bir siyasi partiya üzvü olmayanlar, həm çoxluq təşkil edən, həm də azlıq təşkil edən partiyalar, demək olar ki, burada formalaşıbdır.

Mən Avropa İttifaqına daxil olan ölkələrin hər birinin mərkəzi seçki komissiyalarının formalaşmasını nəzərdən keçirmişəm. Heç biri Azərbaycandakı qədər azad, ədalətli, demokratik şəkildə formalaşmayıbdır. Burada bütün tərəflərin maraqları öz əksini tapır. Bu da hər bir azad seçkinin keçirilməsinə tam təminat yaradır.

Ölkəmizdə azad seçkinin keçirilməsinin təminatlarından biri də Azərbaycanın Seçki Məcəlləsidir. Böyük bir Seçki Məcəlləsi formalaşıbdır. Nə postsovet məkanında, nə Şərqi Avropada, nə də bir çox Avropa dövlətlərində, demək olar ki, belə bir məcəllə yoxdur ki, orada bütün seçki prosesi, o cümlədən Mərkəzi Seçki Komissiyasının, dairə seçki komissiyalarının, məntəqə seçki komissiyalarının formalaşması öz əksini tapsın.

Qeyd etmək istərdim ki, seçki komissiyaları formalaşdıqdan sonra, doğrudan da, çox uzun bir yol keçib və tam şəkildə təkmilləşibdir. İlk növbədə onu qeyd etmək istərdim ki, Azərbaycanda başqa ölkələrdən fərqli

olaraq, dairə seçki komissiyaları daimi əsaslarla fəaliyyət göstərir ki, bu da seçicilərin mütəmadi olaraq siyahılarının dəqiqləşdirilməsinə və seçki komissiyalarının professional olaraq formalaşmasına xidmət edir, əməkhaqqı almaqla daim fəaliyyət göstərir.

Azərbaycanda dünyada yenilik olaraq ilk dəfə seçkilərdə veb-kameralar qoşulub ki, 6 min məntəqədən hər min məntəqədə, yəni altıda birində veb-kamera var. Bununla dünyanın istənilən bir nöqtəsində seçkinin demokratikliyini izləmək olar. Bu yenilik də Azərbaycan tərəfindən həyata keçirilibdir.

Seçki komissiyasının üzvləri üçün mütəmadi olaraq treninqlərin keçirilməsi, onlara qanunların öyrədilməsi də öz əksini tapıbdır. Yəni istər Mərkəzi Seçki Komissiyasında olan üzvlər, istərsə də dairə və məntəqə seçki komissiyalarında olan üzvlər tam professional şəkildə təkmilləşibdir. Onlar istənilən ölkədə azad seçki keçirə bilərlər, kifayət qədər təcrübələri var. Ölkəmizə gələn xarici müşahidəçilər də, digər şəxslər də Azərbaycan təcrübəsini dəyərləndirirlər.

Məsələn, başqa ölkələrdə “exit poll” keçirirlər. Bizdə artıq veb-kamera var, “exit poll”dan 3 dəfə daha şəffaf şəkildə bunu təqdim edir. Əgər məntəqələrin altıda birində o vardırsa, bu, artıq kifayətdir. “Exit poll”da onda biri, iyirmidə biri nəzərə alınır və bunun sayəsində seçkinin nəticəsini elan edirlər. Bu baxımdan Azərbaycan çox ölkələri qabaqlayıbdır.

Bu seçki komissiyasına da Yeni Azərbaycan Partiyası tərəfindən namizədlər irəli sürülübdür. Kifayət qədər təcrübəli, bacarıqlı insanlardır. Biz onları dəstəkləyirik, burada olan Yeni Azərbaycan Partiyasının üzvləri partiyanın İdarə Heyətinin qərarı ilə onların namizədliklərini irəli sürübdür.

Hesab edirik ki, bundan sonra da bu kollektiv Azərbaycanda azad, ədalətli, demokratik seçkilərin keçirilməsinə nail olacaqdır.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim.

Mübariz Qurbanlı. Mübariz müəllim, buyurun.

**Mübariz Qurbanlı**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı salamlayıram. Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır. Hakimiyyətin formalaşmasını isə biz seçki yolu ilə həll edirik. Seçki komissiyalarının burada çox mühüm yeri və rolu vardır.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, təbii ki, müxtəlif sahələrdə olduğu kimi, seçki sisteminin formalaşdırılması istiqamətində də çox mühüm işlər görülübdür. Ulu Öndərin siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə seçki sisteminin formalaşdırılması, azad, demokratik, şəffaf seçkilərin keçirilməsi istiqamətində qanunvericilikdə müxtəlif addımların atılması zərurəti var idi. Azərbaycanda Konstitusiya qəbul edildikdən sonra, təbii ki, biz ölkəmizdə seçki sisteminin təşəkkül tapmasını həll etmiş olduq.

Azərbaycanda 24 dəfə seçki keçirilib: 8 dəfə Prezident seçkiləri, 8 dəfə parlament seçkiləri, 4 dəfə referendum, 4 dəfə isə bələdiyyə seçkiləri. Ulu Öndərin hakimiyyətə qayıdışından sonra keçirilən bütün seçkilər azad, ədalətli, demokratik seçkilər kimi həm Azərbaycan xalqı, həm də beynəlxalq müşahidəçilər tərəfindən tanınıb və bu barədə onlar qeydlərini bildiriblər. Əlbəttə, qərəzli olanları da var idi. Bu qərəzləri nə üçün etdikləri bizə aydındır. Amma onlara diqqət  yetirsəydik, onda biz bugünkü uğurlu nəticələrimizi əldə edə bilməzdik.

Hakimiyyətin mənbəyi xalqdır və seçki ilə müəyyənləşən hakimiyyət əgər xalqın arzusunu tamamilə ardıcıl şəkildə həyata keçirirsə, deməli, həm seçkilərin keçirilməsi, həm də onun nəticələri xalqın mənafeyinə uyğundur və ona görə də xalq ardıcıl olaraq seçki sistemində hakimiyyəti, iqtidarı müdafiə edir.

Bu gün Mərkəzi Seçki Komissiyası özü dövlət qurumu kimi fəaliyyət göstərir. Bu da olduqca önəmlidir. Müxtəlif ölkələrdə seçki sistemləri bir-birindən fərqli ola bilər. Amma Azərbaycanda seçki sistemi Seçki Məcəlləsi ilə seçki keçirən qurumu tamamilə müstəqil qurum kimi təsbit edibdir. Yəni bu qurum heç kimdən asılı deyil, o, qanundan, Konstitusiya normalarından asılıdır. Ona görə də seçki komissiyalarının formalaşması prinsipinə gəldikdə, əlbəttə, bu prinsipin özü də olduqca ədalətlidir. Çünki burada siyasi partiyaların və cəmiyyətdə siyasətdən kənar olan müstəqil, tam seçki hüququ olan deputatların maraqları da uzlaşdırılmışdır. Yəni Mərkəzi Seçki Komissiyasının formalaşması prinsipinə uyğun olaraq dairə və məntəqə seçki komissiyaları formalaşıbdır və dairə və seçki komissiyalarının formalaşması prinsipi də həmin ədalətə söykənir.

Bizim seçki komissiyasının formalaşması və fəaliyyəti beynəlxalq standartlara uyğundur. Eyni zamanda, Azərbaycanda seçki komissiyası şəffaf fəaliyyət göstərir. Məsələn, biz bu gün Birləşmiş Millətlər Təşkilatında təmsil olunan 193 ölkənin seçki sistemlərinə bir-bir müqayisəli şəkildə baxsaq, elə ölkələr var ki, orada seçki keçirilərkən hər hansı bir beynəlxalq müşahidə, daxili müşahidə yüksək səviyyədə təmin edilmir. Amma Azərbaycanda seçki keçirilən zaman müşahidə sistemi mükəmməl şəkildə tətbiq edilmişdir. Həm beynəlxalq müşahidəçilər vardır, həm siyasi partiyaların müşahidəçiləri vardır, həm də müstəqil şəxslərin müşahidə

imkanları vardır. Əlbəttə, veb-kamera sisteminin tətbiqi də olduqca önəmlidir və müasir bir sistemdir.

Onu da qeyd edim ki, 2000-ci ildən seçki komissiyasına rəhbərlik edən Məzahir müəllimin rəhbərliyi ilə bu seçkilərdə maarifləndirmə sisteminin də mükəmməl şəkildə həyata keçirildiyini görürük. Yəni seçicilərin seçkilərdə aktivliyinin təmin edilməsində, əlbəttə, seçkiyə qatılan siyasi partiyalar və namizədlərlə birlikdə seçki komissiyasının da burada çox ciddi, mükəmməl bir proqram həyata keçirdiyini görməkdəyik.

Əlbəttə, təqdim olunan bugünkü namizədlərə biz komitələrdə baxmışıq. Yeni Azərbaycan Partiyasının İdarə Heyətində partiyanın namizədləri müzakirə olunaraq təklif edilibdir. Ona görə hesab edirəm ki, təklif edilmiş komissiya üzvləri bu işi olduqca irəliyə aparmağa qadir olan insanlardır. Hər birinin bu sahədə təcrübəsi vardır. Yeni gənc namizədlər də vardır ki, onların da tərcümeyi-halına, fəaliyyətinə diqqət yetirdikdə onların da bu sahəyə böyük töhfə verə biləcəyini deyə bilərik. Mən öncədən namizədləri təbrik edirəm, onlara uğurlar diləyirəm.

Hamınıza təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Elşən Musayev. Buyurun.

**Elşən Musayev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, media mənsubları və qonaqlar. İlk öncə Mərkəzi Seçki Komissiyasına namizədliyi təqdim olunan bütün üzvləri dəstəklədiyimi bildirirəm, eyni zamanda, səsvermədə bütün həmkarlarımın bu peşəkar və ləyaqətli komandaya dəstək olmalarını xahiş edirəm.

Mərkəzi Seçki Komissiyası uzun illər hörmətli Məzahir müəllimin rəhbərliyi ilə uğurlu, dürüst, şəffaf fəaliyyət göstərib və qanunvericiliyin

tələblərinin aliliyini, peşəkarlığını və aşkarlıq prinsipini özləri üçün prioritet seçib. Bu gün də siyasi partiyalar tərəfindən eyniadlı komandanın əksər üzvlərinə göstərilən etimad ondan xəbər verir ki, həmin üzvlər, həqiqətən, yerindədir, işlərini bilən insanlardır, tutduqları vəzifəyə layiq şəxslərdir.

Hörmətli xanım sədr, qeyd edim ki, müxalif siyasi partiyaların namizədləri ilə də bağlı məsələ bir neçə gün öncə müzakirəyə çıxarıldı və həmin namizədlərin hər biri yekdilliklə dəstəkləndi. Namizədlərə uğurlar arzulayıram. Əminəm ki, onlar səsvermədə də mütləq üstünlük qazanacaqlar və öz şərəfli fəaliyyətlərinə növbəti 5 il müddətində də eyni əzmlə, eyni peşəkarlıqla davam edəcəklər.

Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli namizədliyi irəli sürülmüş MSK üzvləri, hamınızı salamlayıram və bildirmək istəyirəm ki, hər bir hüquqi dövlətin, demokratik cəmiyyətin əsas atributlarından biri seçkidir, seçkinin keçirilməsidir və bu prosesdə hüququn və demokratiyanın aliliyinin təmin olunmasıdır.

Əslində, seçki hadisəsi, sadəcə, seçki hadisəsi deyil. Hər bir cəmiyyətdə hüquqi təfəkkürü, demokratik təfəkkürü və nəticə etibarı ilə həm də sülh təfəkkürünü, birgəyaşayış təfəkkürünü, dözümlülüyü təmin edən hadisədir. Təsadüfi deyil ki, “sülh” və “müharibə” terminləri bir-birinə nə qədər zidd olsa da, biri digərinin antonimi olsa da, Azərbaycan Prezidenti “Gernika” mükafatına layiq görüldü. Bu, sülh və barış üçün təqdim olunan mükafatdır. Yəni beynəlxalq hüququ mənimsəmiş, ədaləti mənimsəmiş cəmiyyətin yetişdirdiyi liderin ədalətli müharibəsi nəticə etibarı

ilə bu gün beynəlxalq mükafatlarla təqdir edilir. Bu öz-özlüyündə mühüm bir hadisədir.

Hörmətli xanım sədr, mənə elə gəlir ki, əgər biz Azərbaycanda Mərkəzi Seçki Komissiyasının fəaliyyətinə diqqət yetirsək görərik ki, elə onun daxili strukturunun özü demokratikdir və bu, seçkilərin demokratik keçirilməsi üçün ilkin əsaslar yaradır. Biz bir neçə gün bundan öncə Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclasında partiyadan irəli sürülən namizədləri təsdiq etdik və müvafiq prosedura uyğun olaraq yönləndirdik.

Digər müxalif qüvvələrin, bitərəflərin hər bir cəmiyyətin siyasi sütununu təşkil edən üç siyasi dünyagörüşü olur. Bunlardan biri neytrallardır, bitərəflərdir, biri hakimiyyətdə olan qüvvələrdir, digəri isə müxalif düşüncəli insanlardır.

Mən düşünürəm ki, biz əgər MSK-nın fəaliyyətinə nəzər salsaq görəcəyik ki, çox hörmətli Məzahir müəllimin rəhbərliyi altında bu üç komponent, əslində, bu üç kombinasiya vahid komanda kimi işləməyi bacarıblar, beynəlxalq təqdirlər alıblar, Azərbaycan cəmiyyətinin təqdirini qazanıblar. Bu gün də eyni şəkildə demokratik nisbəti qorumaqla yenidən biz MSK-nın tərkibini müəyyənləşdirəcəyik.

Qarşımızda böyük vəzifələr durur. Çünki yeni siyasi reallıqda seçkinin də yeni bir keyfiyyət mərhələsinə keçməsi gözləniləndir. Amma halbuki MSK-nın tətbiq etdiyi yeni metod və üsullar, əslində, dünyanın bir çox demokratiya və hüquq ilə öyünən ölkələrindən daha öndədir. Mən düşünürəm ki, bu da seçki məsələsində, seçki prosesində bir Azərbaycan modelinin olması, yaranması deməkdir.

Düşünürəm ki, hazırkı tərkib də cəmiyyətin bütün düşüncə quruluşlarının, fərqli siyasi mövqeli insanlarının görmək istədiyi tərkibdir.

Ona görə mən bu tərkibin uğurlu fəaliyyət göstərəcəyinə inanıram və MSK üzvlüyünə namizədlərə səs verəcəyəm və öncədən onları təbrik edirəm.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Əli Hüseynli. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. 2000-ci illərin əvvəllərində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə hazırlanmış Seçki Məcəlləsi və onun parlamentdə qəbulu ölkəmizdə müasir seçki qanunvericiliyinin əsasını qoymuş oldu. Bu məcəllənin hazırlanması və qəbulu Heydər Əliyevin Azərbaycanın siyasi hüquq sisteminə verdiyi ən mühüm töhfələrdən biri oldu. Məhz həmin dövrdə Mərkəzi Seçki Komissiyasının bu gün də müzakirə etdiyimiz formada paritet əsaslarla formalaşması uzun müzakirələrdən sonra öz əksini tapmış oldu. Bu paritet haqqında, hörmətli Sahibə xanım, Siz də çıxışınızda vurğuladınız. O paritet 2003-cü ildə müzakirə olunarkən bir sıra xarici qüvvələr, bir sıra beynəlxalq təşkilatlar, o cümlədən ölkəmizdə radikal müxalifət onu hər vəchlə pozmaq istəyirdilər.

Hörmətli Zahid müəllim də, digər həmkarlarım da onun tarixi barədə fikirlərini söylədilər. Amma zaman, tarix göstərdi ki, biz haqlı olmuşuq. Baxmayaraq ki, bir sıra ölkələrdə mərkəzi seçki komissiyalarının formalaşmasında siyasi qüvvələr iştirak etmirlər. O, dövlət orqanı kimi formalaşır. Amma Azərbaycan siyasi plüralizmə sadiq olaraq, siyasi partiyaların ölkənin həyatında daha da aktiv olmasını təşviq edərək bu paritetə daim sadiq qalmışdır və indi də bir daha əmin olduq ki, bu, müəyyən sınaqlardan uğurla çıxmışdır. Bu gün birmənalı demək olar ki,

Mərkəzi Seçki Komissiyasının formalaşmasının bu paritet əsasları çox ədalətlidir.

2003-cü ildən sonrakı dövrdə cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə seçki qanunvericiliyinə əlavələr və dəyişikliklər edildi, o, daha da inkişaf etdirildi. Bu gün tam əminliklə söyləyə bilərik ki, Azərbaycanın seçki qanunvericiliyi ən müasir beynəlxalq standartlara cavab verir.

Onu da xüsusi vurğulamaq istəyirəm ki, bu illər ərzində Mərkəzi Seçki Komissiyasının sədri hörmətli Məzahir Pənahovun rəhbərliyi ilə qəbul edilmiş bir çox təlimatlar seçki və referendumları tənzimləyən praktik normaları daha da təkmilləşdirdi.

Bu illər ərzində Mərkəzi Seçki Komissiyasının əldə etdiyi uğurların bir neçə istiqamətini səsləndirmək istərdim.

İlk növbədə, məcəllənin qarşıya qoyduğu əsas vəzifə peşəkar seçki administrasiyasının formalaşması məqsədinə nail olmaq idi. Hörmətli Siyavuş müəllim də qeyd etdi, daimi fəaliyyət göstərən dairə seçki komissiyaları, o cümlədən seçki vaxtı davamlı fəaliyyət göstərən məntəqə seçki komissiyaları  daha da peşəkarlaşdılar.

2. Mərkəzi Seçki Komissiyası ilə yanaşı, dairə və məntəqə seçki komissiyaları da ən müasir standartlara cavab verən binalar və avadanlıqlarla təmin olundular.

3. Müasir informasiya texnologiyalarının, o cümlədən veb-kameraların tətbiqi seçkilərin obyektivliyini tam təmin edən amilə çevrildi.

4. Mərkəzi Seçki Komissiyası çox ciddi bir beynəlxalq təcrübə topladı, həm də öz təcrübəsini digər dövlətlərlə paylaşdı. MSK türk dövlətlərində, MDB-yə üzv olan dövlətlərdə və bir sıra  digər dünya ölkələrində seçkilərin müşahidəsinə aktiv şəkildə qoşulmuş olur.

5. Mərkəzi Seçki Komissiyasının təşkil etdiyi bir çox təlimlərdə seçkilərlə bağlı maarifləndirmə tədbirləri aktiv həyata keçirildi.

Hörmətli sədr, onu da qeyd etmək istəyirəm ki, deputat həmkarlar da bu tədbirlərdə iştirak edirlər ki, bu da Milli Məclislə Mərkəzi Seçki Komissiyası arasında səmərəli əməkdaşlığın bariz nümunəsidir.

Hörmətli deputat həmkarlar, bütün dünyada seçkilər və referendumlar vətəndaşın dövlətin həyatında iştirakının ən kütləvi formasıdır. Seçki ilə bağlı demokratik institutların inkişafı hüquqi dövlətin əsas məqsəd və vəzifələrindən biridir. Bu baxımdan partiyalarda, o cümlədən Milli Məclisdə təmsil olunan siyasi qüvvələrin bir neçə gün bundan əvvəl apardığı açıq müzakirələr və plenar iclasa təklif olunmuş namizədlər bunun bariz nümunəsidir.

Hesab edirik ki, Mərkəzi Seçki Komissiyası üzvlüyünə təqdim olunmuş YAP namizədləri, o cümlədən digər namizədlər də Seçki Məcəlləsinin düzgün tətbiqi, ölkəmizdə demokratik seçkilərin və referendumların keçirilməsi üçün bütün peşəkar keyfiyyətlərə və bacarıqlara malik olan insanlardır və biz onları dəstəkləyəcəyik.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Sonuncu çıxış. Günay Ağamalı. Buyurun.

**Günay Ağamalı.** Hörmətli xanım sədr, hörmətli həmkarlar və media mənsubları. Bu gün müzakirə etdiyimiz Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin və əvəzedici üzvlərinin təyin edilməsi məsələsi ölkəmizdə demokratik institutların möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Seçki sistemi hər bir dövlətin siyasi sabitliyinin, dövlətin, xalqın iradəsinə əsaslanan və qanuni şəkildə formalaşmasını təmin edən əsas mexanizmdir. Mərkəzi Seçki Komissiyası seçki prosesinin şəffaf, ədalətli və qanunvericiliyə uyğun keçirilməsini təmin edən əsas qurumdur. Komissiyanın tərkibinin müəyyənləşdirilməsi dövlətin dayanıqlı inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edən strateji məsələdir.

Təklif olunan namizədlərin peşəkarlığı, təcrübəsi və dövlətə sədaqəti onların sözügedən məsuliyyətli vəzifəni layiqincə yerinə yetirəcəyinə əsas verir.

Azərbaycan dövləti hər zaman seçki institutlarının təkmilləşdirilməsinə, seçki prosesinin daha şəffaf keçirilməsinə xüsusi önəm verib. Möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində seçki mühiti daha da müasirləşdirilmiş, texnoloji imkanlar genişləndirilmiş və beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Bu gün Azərbaycan müasir və etibarlı seçki sisteminə malik ölkədir.

Xüsusi ilə qeyd etmək istərdim ki, seçki sistemlərinə etimad bu sistemi idarə edən insanların peşəkarlığı və obyektivliyi ilə birbaşa bağlıdır. Bu baxımdan Mərkəzi Seçki Komissiyasının tərkibində təmsil olunacaq şəxslərin yüksək məsuliyyət hissi ilə fəaliyyət göstərəcəklərinə əminliyimi ifadə edirəm.

Bu gün regionda və dünyada baş verən mürəkkəb geosiyasi proseslər fonunda Azərbaycanın daxili sabitliyinin qorunması, milli maraqlarımızın təmin olunması və siyasi sistemimizin dayanıqlığı xüsusi əhəmiyyət daşıyır. Bu sabitliyin memarı möhtərəm cənab Prezident İlham Əliyevdir.

Seçki institutlarının güclü və etibarlı olması sabitliyin əsas təminatlarındandır.

Komissiyanın tərkibinin formalaşması, eyni zamanda, dövlətimizin demokratik inkişafına, hüquqi dövlət quruculuğuna və milli maraqların qorunmasına verilən növbəti töhfədir.

Qanun layihəsini müsbət qiymətləndirirəm və onun lehinə səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Mən dedim sonuncu çıxış, amma görürəm, hörmətli Fəzail müəllim də yazılıb. Fəzail müəllim, buyurun.

**Fəzail İbrahimli.** Təşəkkür edirəm, Sahibə xanım. Doğrusu, çıxış etmək istəmirdim, sonra fikrimi dəyişdim. Çünki qərara aldım ki, bizim partiyanın da nümayəndəsi bu tərkibdədir, özümə borc bildim, bir neçə kəlmə danışım.

İnsanlara gözəl, yaraşıqlı geyiminə, yaxud şirin sözlərinə görə deyil, əməlinə görə qiymət verilir. Bu gün bu komandanın uzun müddət Azərbaycanın siyasi həyatında böyük məsuliyyət daşıyan və bu məsuliyyəti uğurla yerinə yetirən addımlarına, əməllərinə qiymət verilir. Bax, bu, əməldir, bu, müsbət addımdır. Biz buna, təbii ki, müsbət yanaşmalıyıq.

İkinci, keçən dövr ərzində bu komanda Azərbaycan dövlətinə və dövlətçiliyinə çox sadiq olub, ördək, balıq, xərçəng prinsipi ilə deyil, vahid, monolit birlik və nəticə etibarı ilə Azərbaycan dövlətinin imicinə müsbət təsir göstərən ciddi addımlar atıb. Əmək intizamı, monolit birlik, səmimiyyət, hamısı, təbii ki, Məzahir Pənahovun xidmətidir. Çünki rəhbərlik etdiyi dövrdə yaranan mühit bunların hamısına imkan verib.

Hər kəs burada, təbii ki, müsbət danışmalıdır. Gec yazıldığım üçün fikrimi yekunlaşdırıb demək istəyirəm ki, bu komanda yaxşı komandadır. Güman edirəm ki, bundan sonrakı əməlləri də Azərbaycan siyasi həyatına gələcək tədqiqatçının bir tədqiqat mövzusu olacaq.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Fəzail müəllim. Ancaq hələ 4 dəqiqəniz var idi, davam edə bilərdiniz. Çox sağ olun.

Hörmətli həmkarlar, 8 nəfər danışdı. Gördüyünüz kimi, danışanlar arasında həm Yeni Azərbaycan Partiyasından olan deputatlar, həm bitərəf, həm də müxalif partiyadan olan deputatlar var idi. Müzakirələr onu göstərdi ki, namizədlər haqqında ümumi rəy müsbətdir. Odur ki, mən məsələni səsə qoyuram. Xahiş edirəm, Mərkəzi Seçki Komissiyasının üzvlərinin və əvəzedici üzvlərinin təyin edilməsi haqqında qərar layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.36 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin qərarı qəbul edildi.

Mərkəzi Seçki Komissiyasının üzvlərini və əvəzedici üzvlərini təbrik edirik. Onlara çox məsul və şərəfli vəzifələrində uğurlar arzulayırıq. Çox sağ olun. Sizi hörmətlə yola salırıq.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. Qeyd edim ki, növbəti 3 məsələ hökumətlərarası sazişlərin təsdiq edilməsi haqqında qanun

layihələridir. Beynəlxalq sənədlərlə bağlı olduğuna görə həmin qanun layihələri bir oxunuşda qəbul edilməlidir. Bildiyiniz kimi, bu, “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələbidir.

Biz indi gündəliyimizin 2-ci məsələsinə keçirik. Bu məsələ “Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası ilə əlaqədar təşkilati tədbirlər və maliyyə məsələləri barədə əlavə Saziş”in təsdiq edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Zaur Şükürova söz verirəm. Zaur müəllim, buyurun.

**Zaur Şükürov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, dəyərli media nümayəndələri. Layihəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin müzakirəsinə təqdim olunmuş qanunla təsdiq edilməsi nəzərdə tutulan “Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası ilə əlaqədar təşkilati tədbirlər və maliyyə məsələləri barədə əlavə Saziş” 2026-cı il yanvarın 15-də Cenevrə şəhərində imzalanmışdır.

Qeyd etmək istərdim ki, Azərbaycan Respublikası hökuməti və Birləşmiş Millətlər Təşkilatı 2023-cü il dekabrın 22-də BMT ilə Azərbaycan Respublikası hökuməti arasında 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası ilə bağlı

imtiyazlar və toxunulmazlıqlar, giriş və çıxış hüququ, idxal və ixrac, mühafizə və təhlükəsizlik və digər məsələləri tənzimləyən ev sahibi ölkəyə dair saziş imzalamışdır. Həmin sazişin 10-cu maddəsinə əsasən BMT və Azərbaycan Respublikası hökuməti və ya onların müvafiq nümayəndələri ilə 13-cü sessiya ilə bağlı təşkilati tədbirlər və maliyyə məsələləri üzrə əlavə sazişlərin bağlanması nəzərdə tutulur.

Hazırkı saziş də 13-cü sessiya ilə əlaqədar təşkilati tədbirlərin və maliyyə məsələlərinin tənzimlənməsi məqsədi ilə imzalanmışdır. Sazişdə forumun keçiriləcəyi məkan və tarix, tədbirin keçirildiyi dövrdə BMT-nin Məskunlaşma Proqramının öhdəlikləri, Milli Təşkilat Komitəsinin yaradılması və yerli heyət, təhlükəsizlik tədbirlərinə dair tələblər, fors-major, iştirak edəcək nümayəndələrin dairəsi, imtiyaz və immunitetlər, viza rəsmiləşdirilməsi və ölkə ərazisində qeydiyyat qaydaları, yerləşmə, maliyyə məsələləri və öhdəliklər, bank hesabları, təchizat, xidmətlər, sponsorluq, sərgi, telekommunikasiya, məxfilik, sazişin qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurlar, mübahisələrin həlli və digər vacib məsələlər barədə məlumatlar müvafiq maddələrdə qeyd olunmuşdur.

Sazişin əlavələri onun ayrılmaz tərkib hissəsidir və bu əlavələrdə forum çərçivəsində keçiriləcək tədbirlərin məkanları, texniki təchizat, tərcümə, təhlükəsizlik qaydaları, nəqliyyat və protokol tədbirləri, media, qida təminatı, böhran hallarının idarə edilməsi, rabitə və sair məsələlər detallı şəkildə əks olunmuşdur.

Hörmətli xanım sədr, hörmətli deputatlar. Sözügedən sazişin təsdiq edilməsi haqqında qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə edilmiş və yekdilliklə dəstəklənərək Milli Məclisin

plenar iclasına tövsiyə olunmuşdur. Komitəmizin adından hörmətli deputat həmkarlarımdan qanun layihəsini dəstəkləmələrini xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə ikinci komitədə də baxılıb. Bu, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsidir. Komitənin sədri hörmətli Səməd müəllimə söz verirəm. Səməd Seyidov. Buyurun.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Həmkarımız Zaur müəllim qanun layihəsini geniş və ətraflı təqdim etdi. Baxmayaraq ki, bu qanun layihəsi texniki məsələləri ehtiva edir, ancaq onun həddindən artıq böyük əhəmiyyətli qiyməti və rolu mövcuddur. Bu, Azərbaycanın beynəlxalq səviyyədə tədbirlərin keçirilməsi ilə bağlı təşəbbüslərinin həyata keçirilməsi, ölkəmizin beynəlxalq aləmdə rolu, Azərbaycanın bu səviyyədə – Birləşmiş Millətlər Təşkilatı səviyyəsində keçiriləcək tədbirlərin təşkil olunması ilə bağlı bir daha dünyaya ciddi mesajının göndərilməsidir.

Bir neçə müddət bundan öncə COP29-un ölkəmizdə keçirilməsi dünyaya böyük əks-səda saldı. Azərbaycanda bu tədbir – Birləşmiş Millətlər Təşkilatının 13-cü Şəhərsalma Forumu da, əminəm ki, ən yüksək səviyyədə keçiriləcəkdir.

Özü də ən vacib məsələlərdən biri, hörmətli xanım sədr, hörmətli həmkarlarım, ondan ibarətdir ki, bu gün dünyada gedən proseslər bu forumun bu şəkildə Azərbaycanda keçirilməsinin əhəmiyyətini ikiqat artırır. Sabitliyin məkanı olan ölkəmizdə beynəlxalq tədbirlərin beynəlxalq qanun

çərçivəsində həyata keçirilməsi ciddi məna daşıyır. Baxın, biz bu qanun layihəsini parlamentdə müzakirə edirik, onu qanun səviyyəsinə yüksəldirik. Biz, sadəcə, tədbir keçirmirik, biz beynəlxalq qanunu Azərbaycanda ən yüksək səviyyədə dünyaya nümayiş etdiririk.

Ona görə bu nöqteyi-nəzərdən, təbii ki, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi bunun tam şəkildə qəbul olunmasının tərəfdarıdır və bunu həmkarlarımdan xahiş edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim.

Müzakirəyə keçirik. Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, media nümayəndələri. Müzakirə etdiyimiz qanun layihəsi çox böyük əhəmiyyət daşıyır. Yəni Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Azərbaycanda keçirilməsi mühüm bir hadisədir. İlk növbədə bu, Azərbaycan Respublikasının siyasi nüfuzunun göstəricisidir.

Digər tərəfdən, Azərbaycanın etibarlı tərəfdaş olmasının bir daha təsdiqi deməkdir. Məlumdur ki, ölkəmizdə keçirilən bütün beynəlxalq forumlar, beynəlxalq tədbirlər ən yüksək səviyyədə təşkil olunur. Bu tədbirin də yüksək səviyyədə keçiriləcəyinə heç bir şübhə yoxdur. Məlumdur ki, Azərbaycanda keçirilən tədbirlər sonrakı tədbirlər, sonrakı forumlar üçün standartlar müəyyənləşdirir, yeni nümunələr ortaya qoyur.

Çox hörmətli Səməd müəllim qeyd etdi, COP29 Azərbaycanda keçirildi. Bu, indiyə qədər keçirilən bütün tədbirlərin ən yüksəyi oldu: təşkilatçılıq baxımından, ölkələrin iştirakı baxımından, eyni zamanda, konkret məsələlərin konkret həll olunması baxımından. Ümumdünya Şəhərsalma Forumunun da ölkəmizdə keçirilməsi təşkilati baxımdan yeni

nümunələr ortaya qoyacaq. Qanun layihəsində maliyyə məsələlərinin nizamlanması ilə bağlı fikirlər səsləndirilir. Məlum məsələlərin də həll olunacağına heç bir şübhə yoxdur.

Digər tərəfdən, bu, ölkəmizə nə verəcək? Onun Azərbaycanda keçirilməsinin digər səbəbi nədən ibarətdir? Hesab edirəm ki, Azərbaycan son illər şəhərsalma sahəsində çox böyük nümunələr ortaya qoyub. Bu gün Qarabağda, Şərqi Zəngəzurda abad qəsəbələrin, şəhərlərin, kəndlərin salınması, bərpa olunması bir nümunədir. Bakı şəhərimizin adı Xəzər dənizinin inciləri sırasında gedir. Eyni zamanda, gələn qonaqlar Azərbaycanın dağıdılmış şəhərlərinin yenidən necə bərpa olunduğunu görəcəklər, xalqımızın iradəsini görəcəklər.

Digər tərəfdən isə cənab Prezidentimizin rəhbərliyi ilə Azərbaycanda görülən digər işlər diqqəti cəlb edəcək. Azərbaycanın yeni əməkdaşlıq mühitləri formalaşacaq, investisiya qoyuluşu üçün addımlar atılacaq. Bütövlükdə bir daha qeyd edirəm, bu forumun Azərbaycanda keçirilməsi mühüm bir hadisədir.

Bu qanun layihəsinə səs verəcəyəm, uğurlar arzulayıram.

**Sədrlik edən.** Çox sağ olun.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihəsi hər iki komitədə geniş müzakirə olunub və bu barədə ətraflı məlumat verildi. Hesab edirik ki, doğrudan da, çox vacib bir qanun layihəsidir və biz onu dəstəkləməliyik.

Bundan əlavə, Azərbaycanda keçiriləcək bu foruma Milli Məclis də qanunvericilik təşəbbüsü ilə öz dəstəyini verir. Biz tam şəkildə onu dəstəkləməliyik və göstərməliyik ki, Azərbaycanın ümumilikdə şəhərsalma

prosesi ilə bağlı belə bir tədbiri keçirməyə haqqı çatır. Birincisi, ölkəmizdə olan ictimai-siyasi sabitlik nəticəsində Azərbaycan bütün beynəlxalq tədbirlərin həyata keçirilməsinin məkanına çevrilibdir. Elə həftə yoxdur ki, burada istər dinlərarası, istər mədəniyyətlərarası, istər ekologiya, istərsə də digər sahələrlə bağlı beynəlxalq tədbir keçirilməsin. Bu sahədə Azərbaycan Birləşmiş Millətlər Təşkilatı ilə çox yaxından əməkdaşlıq edir. Ölkə Prezidentinin qaldırdığı hər hansı bir məsələ, ölkəmizin həyata keçirdiyi hər hansı bir beynəlxalq tədbir dərhal dünya dövlətləri tərəfindən dəstəklənir. Çünki hamı Azərbaycanda bu cür tədbirlərin hörmətli Birinci xanımın, Birinci vitse-prezidentin rəhbərliyi ilə yüksək səviyyədə keçirilməsinin şahididir.

İkinci bir tərəfdən, Azərbaycanın belə bir tədbiri keçirməyə ona görə haqqı çatır ki, ölkəmizin ərazisi 30 ildən artıq darmadağın olunubdur. Bu ərazilərdə yeni nümunəvi şəhərlərin, kəndlərin salınması, "ağıllı kənd"lərin, "ağıllı şəhər"lərin qurulması, orada yeni infrastrukturun, hər dünya ölkəsinin bir modelinin tətbiq olunması göz qabağındadır. Hesab edirəm ki, bundan sonra digər dövlətlərdə, götürək Qəzzada, Ukraynada, İranda tikinti işlərinin aparılmasının təməlini məhz Azərbaycan bu gün qoyur və belə bir forum keçirir ki, onlar da bu forumun nəticəsi olaraq o nümunələrdən gələcəkdə öz şəhərlərinin bərpasında istifadə etsinlər.

Baxmayaraq ki, Azərbaycana bu şəhərsalmada, bir neçə türk dövlətini çıxmaq şərti ilə, heç bir dövlət, nə Beynəlxalq Valyuta Fondu, nə Dünya Bankı, nə də ayrı-ayrı təşkilatlar bir yardım göstərmədilər. Azərbaycanın ərazisi ədalətsiz şəkildə darmadağın olunmuşdu. Lakin görürük ki, dünya ölkələri başqa-başqa yerlərə yardım göstərirlər, dəstək verirlər. Amma nə

Avropa Birliyi tərəfindən, nə də başqaları tərəfindən Azərbaycanın öz ərazisinin bərpasında bir yardımın şahidi olmadıq.

Lakin bununla yanaşı, bu gün Azərbaycan ən yüksək səviyyədə özü öz gücünə, heç kəsə arxalanmadan ərazilərini bərpa edir, vətəndaşlarının yüksək səviyyədə yaşamasını təmin edir. Təsəvvür edin, cənab Prezidentin işğaldan azad olunmuş ərazilərə 500-dən artıq səfərləri olub, 170-dən çox layihəyə imza atıb. Onların 170-i tikilib təmir olunaraq tam şəkildə istifadəyə verilib. Prezident Birinci vitse-prezidentlə onların açılışında iştirak edib. Orada 7 yeni məktəb, 7 məktəbəqədər təhsil müəssisəsi, 2 böyük xəstəxana tikilib. Bunlar hamısı şəhərsalmaya bir nümunədir.

Ona görə də qanun layihəsini dəstəkləyirik, səs verəcəyik. Xahiş edirik, həmkarlarımız da səs versinlər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. İlk növbədə bir məsələni qeyd edim ki, Azərbaycanla Birləşmiş Millətlər Təşkilatı arasında bu forum ilə bağlı imzalanan sənəd saziş adlanmaya da bilərdi. Bu, razılaşma adlana bilərdi, bu, protokol adlana bilərdi. Eyni zamanda, saziş adlandırılıb elə hökumət təsdiqi ilə kifayətləndirilə də bilərdi. Amma bunun parlamentin təsdiqinə verilməsi Azərbaycanın bu məsələni necə yüksək dövlət əhəmiyyətli bir məsələ kimi qiymətləndirməsinin sübutudur və bu məsələdə mən hörmətli Səməd müəllimin fikri ilə tamamilə razıyam.

Digər tərəfdən isə beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi artıq ölkəmiz üçün bir dövlətçilik təcrübəsinə çevrilib. Mən yada salım, Azərbaycanda nüfuzlu Avropa Oyunlarının keçirilməsi, İslam Həmrəyliyi

Oyunlarının keçirilməsi, MDB Oyunlarının keçirilməsi, COP29 kimi nüfuzlu bir tədbirin keçirilməsi, onun əks-sədası indiyə qədər dünyada danışılır və yüksək qiymət verilir. COP29-un təcrübəsi ondan sonra keçirilən həmin növ tədbirlərdə bir nümunə kimi götürülür. Bu, artıq Azərbaycanın praktikasıdır. Bu tədbirlər təkcə paytaxtımızda keçirilmir, regionlarda da keçirilir. Azərbaycan artıq beynəlxalq görüşlərin keçirildiyi bir məkana çevrilib.

Mən yada salım, vaxtilə Amerika Birləşmiş Ştatları və Rusiya Federasiyası baş qərargah rəisləri iki dəfə Bakıda görüşmüşdülər. Vaxtaşırı biz beynəlxalq təşkilatların və yaxud hansısa ölkələrin səfirlərinin Bakıda görüşlər keçirməsi ilə bağlı məlumatlar eşidirik. Bu günlərdə Azərbaycanın xoş münasibətlər saxladığı, ərazi bütövlüyünü dəstəklədiyi Ukrayna Prezidentinin Azərbaycana səfərindən sonra Rusiya və Ukrayna rəhbərlərinin Azərbaycanda görüş keçirməsi ilə bağlı təklif səsləndi. Bunlar hamısı ondan xəbər verir ki, Azərbaycan etimad olunan bir ərazidir, Azərbaycanda təhlükəsizlik məsələsi, beynəlxalq hüququn qorunması məsələsi olduqca vacib bir məsələdir.

Dünən Amerika Birləşmiş Ştatlarında Amerika Prezidentinə qarşı sui-qəsdin təşkil edilməsi göstərdi ki, bu gün terrorla mübarizə, təhlükəsizliyin təmin edilməsi nə qədər vacib bir məsələdir. Cənab Prezidentimizin bu məsələyə reaksiya verməsi Azərbaycanda terrorla mübarizənin vacib bir məsələ olduğunu göstərir. Azərbaycan terrordan əziyyət çəkmiş bir ölkədir və ona görə də bununla mübarizədə ölkəmizin kifayət qədər böyük təcrübəsi var. Erməni millətçilərinin vaxtaşırı “biz qayıdacağıq, biz qayıdacağıq” demələrinin heç bir əsası yoxdur. Onlar qarşılarında güclü,

öz hüququnu qoruya bilən və beynəlxalq birlikdə nüfuzu olan Azərbaycan görürlər. Qoy onlar bunu yaddan çıxarmasınlar.

Bu tədbirin keçirilməsi həm təcrübəmizi dünyaya göstərməyə, eyni zamanda, təcrübəni öyrənməyə Azərbaycana imkan verəcəkdir. Biz müstəqil dövlətçiliyimizin problemlərinə zaman-zaman bir sıra ağır problemləri həll etdikdən sonra girişməyə başlamışıq. 30 illik işğal istər-istəməz inkişafımıza çox ciddi bir maneə olubdur. Ancaq o ağrını, o problemi Azərbaycan həll etdi və bu gün işğaldan azad olunan ərazilərdə gedən quruculuq işləri, bərpa işləri dünyaya bir nümunədir. Azərbaycan təkcə mənzillər tikmir, təkcə sosial obyektlər tikmir. Kommunikasiyaların bərpasının özü böyük bir vəsait tələb edir. Bu, böyük bir təcrübə tələb edir. Bu gün çəkilən su xətləri, elektrik xətləri, qaz xətləri və digər kommunikasiyalar 30 ildən sonra yenidən yenilənməməlidir. İndidən əsası qoyulmalıdır ki, bu gün 5 minlik kənd 20 ildən sonra artıq 20-25 minlik bir kəndə çevrilə bilər. Bu perspektivi nəzərə alaraq Azərbaycan bütün işləri görür.

Şəhərsalma forumunun Azərbaycanda keçirilməsi ölkəmizin təcrübəsinin dünya tərəfindən öyrənilməsinə səbəb olacaq, böyük şirkətlərin Azərbaycana marağına səbəb olacaq və bir çox məsələlərdə olduğu kimi, Azərbaycan bu məsələdə də yaxşı nümunə göstərəcək. Tədbirin yüksək səviyyədə keçirilməsinə heç bir şübhə yoxdur. Azərbaycanın təcrübəsi var, cənab Prezidentimizin beynəlxalq aləmdə nüfuzu var.

Eyni zamanda, fürsətdən istifadə edərək cənab Prezidentimizi dünən nüfuzlu bir beynəlxalq sülh mükafatına layiq görülməsi münasibəti ilə təbrik edirik. Bu, cənab Prezidentin sülhün bərqərar olmasına, dünyada sabitliyin,

əməkdaşlığın yüksəlməsinə verdiyi töhfəyə görə aldığı qiymətdir. Bu münasibət ilə onu ürəkdən təbrik edirik.

**Sədrlik edən.** Çox sağ olun, Aydın müəllim.

Məlahət İbrahimqızı. Buyurun.

**Məlahət İbrahimqızı**. Çox sağ olun, hörmətli xanım sədr. Mən də müzakirə üçün bizə təqdim olunmuş “Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası ilə əlaqədar təşkilati tədbirlər və maliyyə məsələləri barədə əlavə Saziş”in təsdiq edilməsi ilə bağlı qanun layihəsinə, sözsüz ki, səs verəcəyəm. Hörmətli həmkarlarım Zaur müəllim, Səməd müəllim, eləcə də digər həmkarlarım belə mötəbər bir tədbirin Azərbaycanda keçirilməsinin siyasi əhəmiyyəti, bütün parametrlərdən əhəmiyyəti ilə bağlı gözəl fikirlərini səsləndirdilər. Amma mən öz fikirlərimi bir daha paylaşmaq istərdim. Çox təəssüf ki, belə bir mötəbər qərarın verilməsi COP-a hazırlıq ərəfəsində oldu. Səhv etmirəmsə, 2024-cü il dekabrın 7-də verildi. COP da əhəmiyyətinə görə o qədər böyük tədbir idi ki, biz bu cür əhəmiyyətli Şəhərsalma Forumunun Azərbaycanda keçirilməsini ictimaiyyət arasında yetərincə təbliğ edə bilmədik.

Bunun təbliğ olunması niyə vacibdir? Mən burada qısaca olaraq öz fikirlərimi deyil, Birləşmiş Millətlər Təşkilatının xüsusi sessiyasında bu forumun Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul olunarkən o sənədin preambulasında qeyd olunan bir neçə məsələni xatırlatmaq, bir daha diqqətinizə çatdırmaq istərdim. Çünki hər bir məsələ, ölkəmizə verilən hər bir qiymət bir daha göstərir ki, möhtərəm Prezidentimizin istər Azərbaycanda, istər bölgədə həyata keçirdiyi hər bir beynəlxalq tədbir, hər

bir layihə qlobal əhəmiyyətə malikdir. Mən onlardan bir neçəsinə toxunmaq istərdim.

Ölkəmizin Şəhərsalma Forumuna ev sahibi olması ilə bağlı Azərbaycana verilən qiymət. Ev sahibi ölkə olaraq Azərbaycan davamlı urbanizasiya və şəhərsalma inkişafına, şəhər inkişafına, yeni şəhər gündəliyinə və dayanıqlı inkişaf məqsədlərinin dəstəklənməsinə, beynəlxalq tədbirlərə yüksək siyasi dəstək verildiyinə, yüksək səviyyəli beynəlxalq tədbirlərin keçirilməsində zəngin təcrübəyə malik olduqlarına, şəhərsalma təcrübəsi və nümunəvi şəhərlər sahəsində ən gözəl amillərin təcəssüm olunmasına, təhlükəsizlik, yaşıl tədbir və su təşəbbüslərinə görə bu forumun Azərbaycanda keçirilməsini qərara alıbdır. Həqiqətən də, hər bir qeyd olunan, o preambulada verilən dəyər...

Möhtərəm Prezidentimizə həm dövlətimizin, həm də Azərbaycan xalqının dünyada tanıdılmasında, həyata keçirdiyi işlərdə uğurlar, cansağlığı arzulayırıq. Eyni zamanda, onunla bərabər Birinci vitse-prezidentimiz Mehriban xanımın səylərini və zəhmətini də heç vaxt unutmamalıyıq. Mən də çıxışımda bir neçə gün bundan öncə möhtərəm Prezidentimizə verilmiş beynəlxalq “Sülh və Barışıq üçün Gernika mükafatı” ilə bağlı demək istərdim. Bu mükafat o fond yaranan gündən cəmi 10 nəfərə təqdim olunubdur. O 10 nəfərin 6-sı Nobel mükafatı laureatıdır. Kofi Annan kimi, İrlandiyanın keçmiş prezidenti kimi, Şirin Ebadi kimi, UNESCO-nun baş direktoru kimi, yəni dünyanın çox görkəmli 10 şəxsiyyətinə, liderinə verilib. Ona görə də möhtərəm Prezidentimizə belə bir mükafatın verilməsi, həqiqətən, bütün Azərbaycan ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir, bizi qürurlandırır. Seçicilərim adından və öz adımdan möhtərəm Prezidentimizi təbrik edirəm.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyasının Azərbaycanda keçirilməsi, ölkəmizin bu tədbirə ev sahibliyi etməsi bir çox baxımdan xüsusi önəm və əhəmiyyət daşıyır. Bu cür beynəlxalq tədbirlərin keçirilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dünyada güclənən nüfuzunun, ona olan etimadın, artan diqqət və hörmətin göstəricisidir.

Məlum olduğu kimi, Azərbaycanın bu cür beynəlxalq tədbirlərə ev sahibliyi etməsi artıq ənənə halını alıb. Azərbaycan son illər Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, COP29, Qlobal Bakı Forumu kimi bir çox mötəbər tədbirlərə ev sahibliyi edib və hər birini də ən yüksək səviyyədə həyata keçirib, bu sahədə böyük təcrübə qazanıb.

Bu gün çox qürurvericidir ki, Azərbaycanın COP29-da əldə etdiyi uğur və nəticələr hələ də dünyanın diqqət mərkəzindədir və geniş müzakirə olunmaqdadır. Heç şübhəsiz ki, Azərbaycan bu tədbirə də yüksək səviyyədə ev sahibliyi edəcək. Əvvəlki təcrübələr bunu deməyə tam əsas verir.

Bu tədbirlər dövlətimizin nüfuzunun artmasına, iqtisadiyyatının, şəhərsalmanın inkişafına töhfə verməklə yanaşı, ölkəmizin turizm potensialına da önəmli dəyər qatacaq.

Tədbir zamanı bir çox rəsmi şəxslərin, beynəlxalq təşkilatların nümayəndələrinin, müxtəlif dövlətlərdən olan çoxsaylı mötəbər qonaqların və turistlərin Azərbaycana səfəri ölkəmizin nüfuzunun daha da artmasına,

Azərbaycanın inkişaf etməkdə olan turizm potensialının güclənməsinə ciddi töhfə verəcək, ölkəmizə olan diqqət və etimadı daha da artıracaq. Bu tədbirin ən önəmli tərəflərindən biri də məhz budur.

Onu da qeyd etmək lazımdır ki, ölkəmizin bu cür tədbirlərə ev sahibliyi etməsi Azərbaycan həqiqətlərinin, Qarabağda həyata keçirilən misilsiz, böyük quruculuq və abadlıq işlərinin dünyada təbliği baxımından da xüsusi önəm və əhəmiyyət daşıyır.

Bu gün, həqiqətən, Azərbaycan Qarabağda möcüzələr yaradır. Bu prosesi heyranlıqla izləməmək qeyri-mümkündür. Sözün həqiqi mənasında, tamamilə dağıdılmış, viran qoyulmuş 10 min kvadrat kilometr ərazini qısa vaxtda minalardan təmizləmək, yenidən dirçəltmək, dünyanın ən abad və gözəl bölgələrindən birinə çevirmək Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin mühüm növbəti tarixi nailiyyəti hesab olunmalıdır.

Sazişi dəstəkləyir, səs verəcəyimi bildirirəm. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, kifayət qədər müzakirə etdik. Yazılanların hamısı danışdı. Mən indi məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti məsələyə keçirik. “Azərbaycan Respublikası Hökuməti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi arasında Ev Sahibi Ölkə Sazişi”nin təsdiq edilməsi haqqında qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Sadiq müəllim Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Hörmətli həmkarlar, bundan əvvəl də gördük ki, Azərbaycan böyük tədbirlərə ev sahibliyi edir. Bu, Azərbaycanın uğurudur, bu, cənab Prezidentimizin uğurlu siyasətinin nəticəsidir, Heydər Əliyev yolunun davamıdır.

Bu gün sizə təqdim olunmuş İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi ilə Azərbaycan hökuməti arasındakı saziş haqqında istəyirəm bir az ətraflı məlumat verim.

Belə ki, İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinin Nizamnaməsi İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 2021-ci il noyabrın 27-də Aşqabad şəhərində keçirilmiş iclasında qəbul olunub. Azərbaycan 2025-ci il fevral ayının 3-də ratifikasiya edib və ev sahibliyi Azərbaycana həvalə olunub.

Milli Məclisə təqdim olunmuş bu sənəd mərkəzin hüquqi statusunu, fəaliyyət prinsiplərini, imtiyaz və təminatlarını müəyyən etməklə yanaşı, Azərbaycan Respublikası ilə mərkəz arasında institusional münasibətlərin hüquqi əsaslarını yaradır. Saziş mərkəzin funksional fəaliyyətinin səmərəli

şəkildə həyata keçirilməsini təmin edən mühüm normativ mexanizm kimi çıxış edir.

Bildiyiniz kimi, müasir dövrdə qlobal enerji sistemi genişmiqyaslı transformasiya mərhələsindən keçir. Enerji təhlükəsizliyi, iqlim dəyişiklikləri ilə mübarizə və alternativ mənbələrə keçid beynəlxalq gündəliyin əsas istiqamətlərindən biridir. Azərbaycan Respublikası bu dəyişikliklərə uyğunlaşan ölkə olmaqla yanaşı, yeni enerji strategiyalarının formalaşmasına da öz töhfəsini verməkdə davam edir. Uzun illər ərzində etibarlı enerji tərəfdaşı statusunu qoruyan Azərbaycan hazırda təmiz enerji keçidinin təşviqi, yaşıl iqtisadiyyatın inkişafı və regional dayanıqlılığın gücləndirilməsi istiqamətində mühüm bir mərhələyə qədəm qoymuşdur.

İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinə ev sahibliyi Azərbaycanın regional enerji transformasiyasının mərkəzində yerləşməsini təmin edən strateji qərar kimi dəyərləndirilməlidir. Bu qərar ölkəmizin enerji diplomatiyasında qazandığı etimadın, peşəkar idarəetmə təcrübəsinin və yaşıl enerji siyasətinə sadiqliyinin beynəlxalq səviyyədə tanınmasının bir göstəricisidir. Azərbaycanın bu təşəbbüsə ev sahibliyi etməsi isə regional əməkdaşlıq imkanlarını genişləndirəcək, enerji siyasətinin koordinasiyasında yeni institusional platforma formalaşdıracaqdır.

İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi İqtisadi Əməkdaşlıq Təşkilatının ixtisaslaşdırılmış qurumu kimi fəaliyyəti ilə yanaşı, eyni zamanda, BMT-nin Sənaye İnkişafı Təşkilatının Regional Dayanıqlı Enerji Mərkəzlərinin Qlobal Şəbəkəsinin tərkib hissəsi ilə eyni vaxtda inteqrasiya olunur. Bu status Azərbaycanın qlobal bilik mübadiləsi sisteminə qoşulmasını, texniki əməkdaşlıq imkanlarının genişləndirilməsini də əhatə edir.

Mərkəzin yeni enerji dəhlizlərinin formalaşdığı, yaşıl texnologiyalara investisiyaların artdığı və alternativ enerji bazarlarının genişləndiyi şəraitdə bu mərkəzdə layihələrin hazırlanması, onun əlaqələndirilməsi regional inteqrasiyanın təşviqi baxımından mühüm institusional rol oynayacaqdır. Bu mərkəz, eyni zamanda, enerji siyasətinin koordinasiyası, innovativ təşəbbüslərin təşviqi və dayanıqlı inkişaf məqsədlərinin reallaşdırılması istiqamətində də xüsusi rol oynamağı öz öhdəsinə götürmüşdür.

2026-cı il martın 3-də Bakıda keçirilmiş Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasları Azərbaycanın enerji siyasətinin beynəlxalq səviyyədə artan nüfuzunu bir daha nümayiş etdirdi. Həmin tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xüsusi ilə vurğuladı ki, ölkənin zəngin qaz ehtiyatlarına malik olması ilə yanaşı, bərpa olunan enerji mənbələrinə geniş sərmayələrin yatırılması enerji təhlükəsizliyi və uzunmüddətli dayanıqlılıq baxımından strateji zərurətdir. Bu yanaşma Azərbaycanın enerji siyasətinin balanslı və gələcəyə yönəlmiş xarakterini nümayiş etdirir.

“Azərbaycan Respublikası Hökuməti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi arasında Ev Sahibi Ölkə Sazişi”nin Milli Məclis tərəfindən təsdiqi ölkəmizin bu mühüm beynəlxalq instituta ev sahibliyindən maksimum fayda əldə etməsinə imkan yaradacaqdır. Bu sənəd Azərbaycanın təmiz enerji sahəsində regional mərkəz kimi mövqeyini daha da gücləndirəcək, yeni investisiya imkanlarının formalaşmasına, beynəlxalq tərəfdaşlıqların genişlənməsinə və enerji diplomatiyasının institusional əsaslarının möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Deputat həmkarlarımı bu mühüm strateji sənədə səs verməyə dəvət edirəm. Əvvəlcədən də öz təşəkkürümü bildirirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Sadiq müəllim.

Hörmətli həmkarlar, qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün mən sözü komitənin üzvü Pərvanə xanım Vəliyevaya verirəm. Pərvanə xanım, buyurun.

**Pərvanə Vəliyeva,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. “Azərbaycan Respublikası Hökuməti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi arasında Ev Sahibi Ölkə Sazişi”nin təsdiq edilməsi haqqında qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılmışdır.

Saziş İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsini nəzərə alaraq, Təmiz Enerji Mərkəzinin Nizamnaməsini və onun 6-cı maddəsini rəhbər tutaraq, “Diplomatik əlaqələr haqqında” 1961-ci il Vyana Konvensiyasına uyğun olaraq İqtisadi Əməkdaşlıq Təşkilatı ilə Azərbaycan hökuməti arasında 2025-ci il dekabrın 2-də Bakı şəhərində imzalanmışdır.

Saziş mərkəzin funksiya və vəzifələrinin səmərəli həyata keçirilməsini, onun hüquqi statusunu, imtiyazlarını müəyyən edir, həmçinin ev sahibi ölkə ilə münasibətlərini tənzimləyir. Belə ki, mərkəz Bakı şəhərində yerləşir, icraçı direktor tərəfindən idarə edilir, qərargahı Azərbaycan hökuməti tərəfindən təmin olunur. Mərkəz Azərbaycanda akkreditə olunmuş diplomatik korpusa şamil edilən bütün immunitet və imtiyazlara malikdir.

İcraçı direktor bu sazişin səmərəli icrası üçün hökumətlə sıx əməkdaşlıq edir.

Qlobal enerji sistemləri dərin transformasiya mərhələsindən keçdiyi bir dövrdə Azərbaycan yalnız bu dəyişikliklərə uyğunlaşmır, həm də onları formalaşdıran ölkələrdən biri kimi çıxış edir. Bu baxımdan İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinə Azərbaycanın ev sahibliyi etməsi ölkəmizin yaşıl enerjiyə keçidinin mərkəzində yerləşməsini təmin edən çox strateji bir qərardır. Mərkəz həm də BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNIDO) Dayanıqlı Enerji Mərkəzlərinin Qlobal Şəbəkəsinin tərkib hissəsi kimi çıxış edir. Bu da onu göstərir ki, Azərbaycan qlobal səviyyədə dayanıqlı enerji həllərinin tətbiqi platformasına da bununla qoşulmuş olur. Eyni zamanda, mərkəz "Cənub–Cənub" əməkdaşlıq modelini təcəssüm etdirir.

Nəzərə alsaq ki, İqtisadi Əməkdaşlıq Təşkilatına 5 Mərkəzi Asiya ölkəsi də üzvdür, həmçinin Türkiyə təsisçi ölkədir. Azərbaycan müxtəlif formatlarda bu ölkələrlə təmiz enerji sahəsində mühüm layihələr icra edir.

2024-cü ildə Bakıda COP29 tədbiri zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "Təmiz enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanmışdı. O cümlədən yaşıl enerji dəhlizləri üzrə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan Türkiyə ilə mühüm layihələrimiz mövcuddur. Bu, təkcə enerji satışı deyil, həm də gələcək qlobal logistika zəncirinin memarı kimi çıxış etmək deməkdir.

Sözügedən sazişin təsdiqi Azərbaycanın bu mühüm təşkilata ev sahibliyindən tam şəkildə faydalanmasına imkan yaradacaqdır. Bu, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin, o cümlədən türk dünyasının təmiz enerji texnologiyaları üzrə də inteqrasiyasının təşviqi baxımından mühüm

rol oynayacaq, eləcə də regiona enerji sahəsində innovasiyanı gətirməklə yeni tərəfdaşlıqların və investisiyaların cəlb olunmasını təmin edəcəkdir.

Layihə ilə bağlı komitəmizin rəyi müsbətdir. Həmkarlarımı layihəyə səs verməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, müzakirəyə yazılanlar yoxdur. Ona görə də mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələ “Azərbaycan Respublikası Hökuməti ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Qanun layihəsi “Azərbaycan Respublikası ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində

əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədədir və Milli Məclisə cənab Prezident İlham Əliyevin imzası ilə daxil olub.

Bildirmək istəyirəm ki, sazişi 2026-cı il fevralın 27-də Bakı şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin və Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin iştirakı ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Efiopiyanın xarici işlər naziri Qedion Timoteos imzalayıblar və 15 maddədən ibarətdir. Bütün həmkarlara da bu saziş paylanıb.

Saziş çox böyük əhəmiyyət kəsb edir. Sazişdə Azərbaycanın xarici siyasət strategiyası öz əksini tapıb. Belə ki, Azərbaycanın müxtəlif regionlarla, xüsusi ilə Afrika ölkələri ilə əlaqələrini genişləndirməsi onun çoxşaxəli xarici siyasət kursunun tərkib hissəsidir. Məhz buna görə də "Azərbaycan Respublikası Hökuməti ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in imzalanması bir neçə mühüm istiqamətdə əhəmiyyət daşıyır. Əsas məqam ilk növbədə hərbi əməkdaşlığın genişləndirilməsidir.

Hörmətli həmkarlar, bu saziş Azərbaycanla Efiopiya arasında müdafiə sahəsində əlaqələrin qurulmasına və inkişafına şərait yaradır. Buraya hərbi təlimlər, təcrübə mübadiləsi, hərbi təhsil, hərbi tibbi xidmətlər və texniki əməkdaşlıq daxildir. Eyni zamanda, müdafiə sənayesi və texnologiya mübadiləsi mühüm şərtdir. Saziş çərçivəsində müdafiə sənayesi sahəsində əməkdaşlıq, texnologiyaların paylaşılması və birgə layihələrin həyata keçirilməsi mümkün ola bilər. Bu isə təhlükəsizlik və sabitliyə töhfə verir. İki ölkə arasında əməkdaşlıq regional və qlobal təhlükəsizlik məsələlərində koordinasiyanı gücləndirir. Bu da terrorizmə qarşı mübarizədə və digər təhlükəsizlik çağırışlarında çox mühüm fayda verir.

Hörmətli həmkarlar, bununla yanaşı, beynəlxalq mövqelərin gücləndirilməsi baxımından Azərbaycan Afrikada, Efiopiya isə Cənubi Qafqaz regionunda yeni tərəfdaş qazanır. Bu, hər iki ölkənin beynəlxalq arenada siyasi və strateji mövqelərini gücləndirir.

Sazişin imzalanması diplomatik və iqtisadi əlaqələrə də müsbət təsir göstərir və adətən digər sahələrdə – iqtisadiyyatda, ticarətdə, humanitar əlaqələrdə əməkdaşlığın genişlənməsinə təkan verir. Bir sözlə, bu saziş təkcə hərbi sahədə deyil, həm də siyasi, iqtisadi və strateji baxımdan Azərbaycan və Efiopiya arasında uzunmüddətli əməkdaşlıq üçün mühüm addım hesab olunur.

Hörmətli həmkarlar, qanun layihəsi Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində müzakirə edilib və plenar iclasa tövsiyə olunmuşdur. Səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, bu qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün mən yenə də, Zaur müəllim, Sizə söz verirəm. Buyurun. Zaur Şükürov.

**Zaur Şükürov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, dəyərli media nümayəndələri. Qanun layihəsi və saziş barədə komitə sədri Arzu müəllim ətraflı məlumat təqdim etdi. Bu səbəbdən komitəmiz adından müəyyən məlumatları qısa şəkildə diqqətinizə çatdırmaq istərdim.

Efiopiya Afrika qitəsinin mühüm dövlətlərindən biridir. Belə ki, əhali sayına görə dünyada 10-cu, Afrika qitəsi üzrə 2-ci yerdə, həmçinin ümumi

daxili məhsulun həcminə və iqtisadi artım tempinə görə qitə dövlətləri arasında ilk onluqda qərarlaşıb. Afrika İttifaqının mənzil qərargahı bu ölkənin paytaxtı Əddis-Əbəbə şəhərində yerləşir.

Son illər Azərbaycan–Efiopiya münasibətlərində müəyyən inkişaf dinamikası müşahidə olunur. Məlum olduğu kimi, Efiopiyanın Baş naziri Abiy Əhməd Əli bu ilin fevral ayında ölkəmizdə səfərdə olmuşdur və səfər çərçivəsində qarşılıqlı maraq doğuran sahələr üzrə müzakirələr aparılmış və bir neçə sənəd imzalanmışdır. Arzu müəllimin qeyd etdiyi kimi, hazırkı saziş də məhz həmin səfər çərçivəsində imzalanmışdır.

Sazişin xüsusi ilə 2 maddəsinə diqqət çəkmək istərdim. Əməkdaşlıq sahələrini ehtiva edən 3-cü maddənin 3.1.5-ci bəndində hərbi-texniki əməkdaşlıq nəzərdə tutulur. Məlumdur ki, son illərdə ölkəmizin müdafiə sənayesi çox sürətlə inkişaf edir və hazırda Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal olunur.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində qeyd etdiyi kimi, dünyanın böyük, aparıcı müdafiə sənayesi şirkətləri ilə Azərbaycanda birgə müəssisələr yaradılmışdır və Azərbaycan hazırda 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir. Zənnimcə, bu saziş gələcəkdə hərbi təyinatlı məhsullarımızın Efiopiyaya ixracı üçün imkanlar aça bilər.

Sazişin mübahisələrin həllinə dair 13-cü maddəsində bu sazişin təfsiri və ya tətbiqindən qaynaqlanan hər hansı mübahisənin tərəflər arasında danışıqlar yolu ilə diplomatik kanallar vasitəsi ilə həll edilməsi və həlli üçün heç bir milli və ya beynəlxalq məhkəməyə və ya 3-cü tərəfə müraciət edilməməsi nəzərdə tutulur. Bu müddəa iki ölkə arasında qarşılıqlı etimadın göstəricisi hesab edilə bilər.

Hörmətli xanım sədr, hörmətli deputatlar, sazişin təsdiq edilməsi haqqında qanun layihəsi Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində müzakirə edilmiş və yekdilliklə dəstəklənərək Milli Məclisin plenar iclasına tövsiyə olunmuşdur. Nəzərə alınmasını xahiş edirik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Yazılan yoxdur. Səsverməyə keçirik. Qanun layihəsini səsə qoyuram. Hörmətli həmkarlar, xahiş edirəm, münasibətinizi bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, növbəti 3 məsələ üçüncü oxunuşda olan qanun layihələridir. Biz indi gündəliyin 5-ci məsələsinə keçirik. Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü Soltan Məmmədova söz verirəm. Soltan müəllim, buyurun, məlumat verin.

**Soltan Məmmədov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Narkoloji xidmət və nəzarət haqqında qanun layihəsi ilə bağlı birinci və ikinci oxunuşlarda Əmək və

sosial siyasət komitəsinin sədri Musa müəllim tərəfindən ətraflı məlumat verilmişdir.

Qısa olaraq bildirmək istəyirəm ki, qanun layihəsində narkoloji və psixotrop maddələrlə bağlı qanunsuz dövriyyə və narkomaniya ilə mübarizə çərçivəsində narkoloji xidmətlərin müəyyən peşə və vəzifələrdə məhdudlaşdırılması və işəgötürənlərin məsuliyyətinin artırılması üçün qanunvericiliyin təkmilləşdirilməsi nəzərdə tutulur. Bu məqsədlə işə qəbul və əmək fəaliyyəti zamanı tibbi müayinələrin aparılması, həmçinin narkoloji xəstə olduğu müəyyən edilən şəxslərlə əmək müqaviləsinə xitam verilməsi ilə bağlı dəyişikliklər təklif edilir.

İkinci oxunuşdan sonra qanun layihəsinin mətnində heç bir dəyişiklik olmamışdır. Ona görə də qanun layihəsinin olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, bilirsiniz ki, bu qanun layihəsinə Səhiyyə komitəsində də baxılmışdır. Mən indi komitənin sədri hörmətli Əhliman müəllim Əmiraslanova söz verirəm. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Qanun layihəsi ilə bağlı Səhiyyə komitəsinin də rəyi müsbətdir. Nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, üçüncü oxunuşdur. Qanun layihəsini səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
| Lehinə | 98 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ Cinayət Məcəlləsində və “Terrorçuluğa qarşı mübarizə haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsi ilə bağlı birinci və ikinci oxunuşlarda geniş məlumat verilib. Layihədə hər hansı bir dəyişiklik olmadığı üçün səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Arzu müəllim, qanun layihəsinə sizin komitənizdə də baxılıb. Xahiş edirəm, Siz Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri kimi münasibət bildirin. Buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Qeyd edildiyi kimi, qanun layihəsi Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və “Terrorçuluğa qarşı mübarizə haqqında” Qanunda bir sıra dəyişikliklərlə bağlıdır. Birinci və ikinci oxunuşlarda müzakirə edilib. Üçüncü oxunuş üçün komitəmiz tərəfindən plenar iclasa tövsiyə olunub. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, görürəm, heç kimin sözü, sualı yoxdur. Səsverməyə keçirik. Buyurun, qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələmiz Vergi Məcəlləsində, “Təhsil haqqında” və “Minatəmizləmə fəaliyyəti haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Arzu müəllim, söz Sizindir. Buyurun, məlumat verin.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Qanun layihəsinə birinci və ikinci oxunuşlarda baxılmışdır. Həmkarlarımız tərəfindən geniş müzakirə edilmişdir. Əlavə rəy və təkliflər daxil olmamışdır. Komitəmiz tərəfindən üçüncü oxunuş üçün plenar iclasa tövsiyə edilib. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, bilirsiniz ki, bu qanun layihəsinə daha 2 komitədə baxılmışdır. Birinci komitə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Komitənin sədri hörmətli Azər müəllim Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Qanun layihəsinə dair komitənin rəyi üçüncü oxunuşda da müsbətdir. Nəzərə alınmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

İkinci komitə Elm və təhsil komitəsidir. Komitənin rəyini bildirmək üçün hörmətli Anar müəllim İsgəndərova söz verirəm. Anar müəllim, buyurun.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, qanun layihəsi haqqında birinci və ikinci oxunuşlar zamanı ətraflı məlumat vermişdim. Komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Anar müəllim.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---:|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti 2 məsələ ikinci oxunuşda olan qanun layihələridir. İndi gündəliyin 8-ci məsələsinə keçirik. Bu məsələ Əmək Məcəlləsində və “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə

Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən yenə də sözü komitənin üzvü Soltan Məmmədova verirəm. Buyurun.

**Soltan Məmmədov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı birinci oxunuşda Əmək və sosial siyasət komitəsinin sədri tərəfindən ətraflı məlumat verilmişdir.

Qısa olaraq bildirmək istərdim ki, qanun layihəsində əməkhaqqı sistemində gender bərabərliyinin təmin edilməsi üçün qanunvericilikdə dəyişiklik edilərək eyni və ya oxşar işlərlə yanaşı, bərabərdəyərli işlərə görə də bərabər əməkhaqqının ödənilməsi nəzərdə tutulur. Eyni zamanda, işəgötürənlərin bu sahədə öhdəlikləri konkretləşdirilir və əməkhaqqının müəyyən edilməsində obyektiv meyarların tətbiqi ilə ayrı-seçkiliyin qarşısının alınması gücləndirilir.

Qanun layihəsi müvafiq beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmışdır. Birinci oxunuşdan sonra qanun layihəsinin mətnində heç bir dəyişiklik olmamışdır, komitə tərəfindən yekdilliklə qəbul edilmişdir. Qanun layihəsinin ikinci oxunuşda olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün komitənin sədri hörmətli Hicran xanım Hüseynovaya söz verirəm. Buyurun.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Qanun layihəsi ilə bağlı komitəyə əlavə rəy və təklif daxil olmayıb. Cari il aprelin 15-də komitə iclasında ikinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilib. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, ikinci oxunuşdur, ona görə qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Mən qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Ancaq görürəm ki, heç kim yazılmayıb. Ona görə də səsverməyə keçəcəyik. Birinci səsvermə maddələr üzrədir. Bu qanun layihəsində 2 maddə var. Xahiş edirəm, 1-ci maddəyə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi.

İndi mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti məsələmiz “Yol hərəkəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Komitənin sədri hörmətli Əli müəllim Hüseynliyə söz verirəm. Buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli sədr, bu layihə ilə bağlı birinci oxunuşda geniş məlumat vermişəm. “Yol hərəkəti haqqında” Qanunun “Əsas anlayışlar”

maddəsində operativ nəqliyyat vasitələri ilə bağlı bir sıra mühüm əlavələr edilib. Hər hansı bir təklif və irad olmamışdır. Odur ki, ikinci oxunuşda da səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, xatırladıram, ikinci oxunuşdur, qanun layihəsini əsas kimi qəbul etməliyik. Əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Maddələr üzrə səsverməyə keçirik. Bu qanun layihəsində 1 maddə var. Xahiş edirəm, həmin maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi isə qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin son 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə bağlıdır.

10-cu məsələ Maliyyə icarəsi haqqında qanun layihəsidir, 11-ci məsələ isə Mülki Məcəllədə və digər 2 məcəllədə, "Müflisləşmə və iflas haqqında" Qanunda və daha 21 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Odur ki, hörmətli həmkarlar, mən təklif edirəm, əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək, sonra isə birlikdə müzakirə edək. Bildiyiniz kimi, biz həmişə səsverməni ayrılıqda keçiririk. Onu da deyim ki, qanun layihələri birinci oxunuşda müzakirəyə təqdim olunur.

Hörmətli həmkarlar, nəzərinizə çatdırmaq istəyirəm ki, 10-cu məsələ ilə bağlı dəvət olunan şəxslər var. Dəvət olunanlar, Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini hörmətli Toğrul Əliyev və Mərkəzi Bankın baş direktoru hörmətli Tural Feyzullayev iclasımızda iştirak edirlər. Biz sizi salamlayırıq.

Hörmətli həmkarlar, hər iki qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, mən yenə də sözü Sizə verirəm. Buyurun, qanun layihələrini təqdim edin.

**Azər Əmiraslanov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Möhtərəm cənab Prezident tərəfindən Milli Məclisə daxil olmuş Maliyyə icarəsi haqqında qanun layihəsi birinci oxunuş üçün təqdim olunur. Layihə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində geniş  müzakirə olunmuş və plenar iclasa tövsiyə edilmişdir.

Qanun layihəsinin qəbul olunmasını zəruri edən əsas amil, hər şeydən əvvəl, maliyyə icarəsi fəaliyyətinin hüquqi əsaslarının müəyyən edilməsi və bu sahədə münasibətlərin sistemli şəkildə tənzimlənməsidir.

Bu layihə ölkəmizdə maliyyə bazarlarının inkişafı, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, real sektorun investisiya fəaliyyətinin dəstəklənməsi və dayanıqlı iqtisadi artıma nail olunması  baxımından mühüm əhəmiyyət kəsb edir.

Maliyyə icarəsi iqtisadi mahiyyətinə görə investisiya yönümlü maliyyələşmə alətidir. O, kreditlə alış və adi icarənin elementlərini özündə birləşdirən hibrid maliyyə mexanizmidir. Sadəcə, ikitərəfli bank kreditləşməsindən və icarə münasibətlərindən fərqli olaraq, maliyyə icarəsi icarəyə verən, satıcı və icarəçinin iştirak etdiyi üçtərəfli sxemə əsaslanır. Bu mexanizm vasitəsi ilə sahibkar, yəni icarəçi böyük həcmli ilkin kapital qoyuluşu etmədən istehsal və ya xidmət fəaliyyəti üçün zəruri olan avadanlığı, texnikanı və digər əsas vəsaitləri əldə etmək imkanı qazanır. Beləliklə, maliyyə icarəsi klassik bank kreditinə alternativ maliyyələşmə mexanizmi olmaqla sahibkarların investisiya imkanlarını genişləndirir.

Maliyyə icarəsi verən tərəf, yəni maliyyə lizinqi şirkəti əmlakı satıcıdan alaraq sahibkara istifadəyə verir və sahibkar həmin əmlakın dəyərini müəyyən müddət ərzində hissə-hissə icarə verənə ödəyir. Müqavilə

müddəti başa çatdıqdan sonra əmlakın mülkiyyət hüququnun icarəçiyə keçməsi imkanı yaranır.

Hörmətli həmkarlar, qanun layihəsində maliyyə icarəsi 4 əsas meyardan biri ilə müəyyən olunur. Bu meyarların mahiyyəti ondan ibarətdir ki, əgər müqavilənin sonunda əmlak icarəçiyə keçirsə, icarə müddəti aktivin istismar müddətinin 75 faizdən çoxunu əhatə edirsə, müqavilə üzrə ödənişlər aktivin dəyərinin 90 faizdən çox hissəsini təşkil edirsə, müqavilə sonunda aktivin dəyəri ilkin qiymətin 20 faizdən azı səviyyəsində qalırsa, bu, artıq adi icarə deyil, maliyyə icarəsi sayılır. Başqa sözlə, bu halda aktiv və ya əsas vəsait faktiki olaraq hissə-hissə əldə edilir.

Maliyyə icarəsinin iqtisadi əhəmiyyəti bir neçə istiqamətdə özünü göstərir. İlk növbədə, bu mexanizm sahibkarların maliyyə resurslarına çıxış imkanlarını asanlaşdırır. Xüsusi ilə də maliyyə tutumlu avadanlıqların alınması üçün zəruri vəsaitləri cəlb etməkdə çətinlik çəkən kiçik və orta biznes subyektləri üçün investisiya imkanları yaranır. Çünki bu halda böyük məbləğdə ilkin kapital qoyuluşu tələb olunmur.

İkinci mühüm məqam real sektorun modernləşdirilməsidir. Maliyyə icarəsi vasitəsi ilə müəssisələr yeni texnologiyalar əldə edir, istehsal vasitələrini yeniləyir və bu yolla rəqabət qabiliyyətini artırır. Bu isə iqtisadiyyatın texnoloji inkişafına və məhsuldarlığın yüksəlməsinə, istehsalın səmərəliliyinə müsbət təsir göstərir.

Üçüncü mühüm istiqamət maliyyə bazarlarının dərinləşməsidir. Maliyyə icarəsi bank kreditləri ilə yanaşı, alternativ maliyyələşmə kanalı yaradır, maliyyə vasitəçiliyini genişləndirir və qeyri-bank maliyyə institutlarının rolunu artırır.

Hörmətli həmkarlar, layihə konseptual baxımdan 5 əsas fəsildən ibarətdir. Birinci fəsildə ümumi müddəalar müəyyən edilir, əsas anlayışlar izah olunur, maliyyə icarəsi fəaliyyətinin hüquqi əsasları və tətbiq dairəsi göstərilir. Burada maliyyə icarəsinin subyektləri – icarəyə verən, icarəçi və satıcı müəyyən olunur, maliyyə icarəsinin obyekti kimi sahibkarlıq fəaliyyətində istifadə edilən əsas vəsaitlər nəzərdə tutulur.

İkinci fəsildə maliyyə icarəsi müqaviləsi üzrə münasibətlər, ödəniş mexanizmi, tərəflərin hüquq və vəzifələri, subicarə imkanları və müqavilənin vaxtından əvvəl ləğvi halları müəyyən edilir.

Üçüncü fəsildə maliyyə icarəsi subyektlərinin əmlak hüquqlarının qorunması, risklərin bölüşdürülməsi və sığorta mexanizmləri nəzərdə tutulur. Bu yanaşma maliyyə bazarında etibarlılığı və hüquqi sabitliyi gücləndirir.

Dördüncü fəsil maliyyə icarəsi fəaliyyəti üzrə tənzimləmə və nəzarət məsələlərinə həsr olunur. Maliyyə icarəsi ilə məşğul olan şirkətlər maliyyə bazarının subyektləri hesab edildiyinə görə onlar bu bazarın requlyatoru olan Mərkəzi Bankın tənzimləmə və nəzarət dairəsinə daxil edilir.

Beşinci fəsil qanunvericiliyin pozulmasına görə məsuliyyəti və keçid müddəalarını əks etdirir. Qanunun dərc olunduğu gündən 6 ay sonra qüvvəyə minməsi nəzərdə tutulur. Eyni zamanda, bu qanun qüvvəyə mindiyi tarixdən 9 ay müddətində ölkə ərazisində lizinq fəaliyyətini həyata keçirən şəxslər öz fəaliyyətlərini bu qanunun tələblərinə uyğunlaşdırmalı və reyestrə daxil edilmək üçün Mərkəzi Banka müraciət etməlidirlər. Bu, lizinq şirkətlərinə yeni qanuna uyğunlaşmaq üçün üst-üstə 15 aylıq müddətin verilməsi deməkdir.

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Təqdim olunan növbəti qanun layihəsi bir sıra qanunlara dəyişikliyi nəzərdə tutmaqla maliyyə icarəsi institutunun hüquqi sistemə tam və sistemli şəkildə inteqrasiyasını təmin etmək məqsədi daşıyır. Başqa sözlə, bu layihə az öncə təqdim etdiyimiz Maliyyə icarəsi haqqında qanun layihəsinin qəbul edildikdən sonra tətbiqi üçün zəruri olan uyğunlaşdırıcı dəyişiklikləri özündə birləşdirir.

Maliyyə icarəsi münasibətləri hüquqi və iqtisadi baxımdan kompleks xarakter daşıyır. Bu münasibətlər yalnız icarə münasibətləri ilə məhdudlaşmır, eyni zamanda, alğı-satqı, maliyyələşmə, təminat, sığorta, vergi və mühasibat uçotu elementlərini də özündə birləşdirir. Bu baxımdan maliyyə icarəsi mexanizmi iqtisadiyyatın müxtəlif sahələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Məhz bu səbəbdən təqdim olunan qanun layihəsində müvafiq qanunvericilik aktlarına uyğunlaşdırıcı dəyişikliklərin edilməsi nəzərdə tutulur. Bu dəyişikliklər ilk növbədə terminoloji vahidliyin təmin olunmasına xidmət edir.

Digər tərəfdən, dəyişikliklər maliyyə bazarının institusional elementi kimi maliyyə icarəsi fəaliyyətinin hüquqi əsaslarının möhkəmləndirilməsinə yönəldilmişdir. Bu baxımdan banklar, bank olmayan kredit təşkilatları, kredit büroları, nağdsız hesablaşmalar və digər maliyyə infrastrukturu ilə bağlı qanunvericilik aktlarında müvafiq uyğunlaşdırmalar aparılır.

Layihədə maliyyə icarəsi obyektinin hüquqi statusu, əmlak hüquqlarının qorunması, təminat mexanizmlərinin tətbiqi, müflisləşmə və iflas prosedurları zamanı tərəflərin hüquqlarının dəqiqləşdirilməsi ilə bağlı normalar da öz əksini tapmışdır. Bu isə lizinq əməliyyatlarında hüquqi risklərin azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Vergi qanunvericiliyində nəzərdə tutulan dəyişikliklər maliyyə icarəsi əməliyyatlarının, vergi rejiminin dəqiqləşdirilməsinə və bu mexanizmin praktik tətbiq imkanlarının genişləndirilməsinə xidmət edir.

Diqqətəlayiq məqamlardan biri də maliyyə icarəsi mexanizminin real sektorun müxtəlif sahələrində, o cümlədən kənd təsərrüfatı, kooperasiya, elmi fəaliyyət və sahibkarlığın inkişafı ilə bağlı qanunvericilik aktlarında nəzərə alınmasıdır.

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Maliyyə icarəsinin milli iqtisadiyyatımız və real sektor üçün əhəmiyyətini, maliyyə bazarlarının inkişafı baxımından mühüm təşəbbüs olduğunu, beynəlxalq təcrübəyə uyğun tənzimləmə çərçivəsinin formalaşdırıldığını nəzərə alaraq, hər iki layihənin birinci oxunuşda müzakirəsini və qəbul edilməsini məqsədəuyğun hesab edirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, 11-ci məsələyə daha 3 komitədə baxılmışdır. Birinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Əli müəllim, sözü Sizə verirəm. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Hörmətli Azər müəllim layihə haqqında çox geniş məlumat verdi. Həqiqətən, bu, çox mühüm bir layihədir, iqtisadiyyatın inkişafına öz töhfəsini verəcək bir layihədir.

Hörmətli sədr, burada bizim komitənin profilinə uyğun olaraq bir neçə qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. İlk növbədə Mülki Məcəllədə müvafiq dəyişikliklər edilir və 39-cu fəslin ləğvi nəzərdə tutulur. Terminlər yeni qanuna uyğun olaraq dəyişdiriləcəkdir.

Bundan başqa, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanunda lisenziyaların verilməsi, fəaliyyətin başlanması üçün qeydiyyat və digər prosedurlar da öz əksini tapır. Nəhayət, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanunda texniki xarakterli uyğunlaşmalar həyata keçiriləcəkdir. Komitəmizin rəyi müsbətdir, nəzərə alınmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Qanun layihəsinə Aqrar siyasət komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün sözü hörmətli Tahir Rzayevə verirəm. Buyurun, Tahir müəllim.

**Tahir Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli sədr, Aqrar siyasət komitəsinin profilinə uyğun olaraq qanunlarda bir çox terminlərin uyğunlaşdırılması nəzərdə tutulub. Bu təbiidir və komitənin rəyi müsbətdir, səsə qoymaq olar.

**Sədrlik edən.** Çox sağ olun.

Qanun layihəsinə Elm və təhsil komitəsində də baxılıb. Hörmətli Anar müəllim, sözü Sizə verirəm. Buyurun, komitənin rəyini bildirin.

**Anar İsgəndərov.** Hörmətli Sahibə xanım, mənə belə gəlir ki, qanun layihəsi haqqında ətraflı məlumat verildi. Bu qanun layihəsində elm haqqında uyğunlaşdırma xarakterli, sadəcə, bir fikir var. “Lizinq” sözü “maliyyə icarəsi” sözləri ilə əvəz olunur. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Anar müəllim.

Hörmətli həmkarlar, müzakirəyə keçirik. Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Hörmətli sədr, dəyərli millət vəkilləri, müzakirəyə çıxarılan Maliyyə icarəsi haqqında qanun layihəsi ölkəmizdə maliyyə alətlərini şaxələndirmək və real sektorun inkişafına töhfə vermək məqsədi daşıyır. Layihənin əsas mahiyyəti maliyyə icarəsinin, yəni lizinq fəaliyyətinin hüquqi çərçivəsini müəyyən etməkdən, şəffaflığı artırmaqdan və institusional nəzarət mexanizmlərini gücləndirməkdən ibarətdir.

Sənəddə lizinq münasibətlərinin əsas elementləri, yəni tərəflər, müqavilə formaları, ödəniş mexanizmləri, riskin bölgüsü və ümumiyyətlə, nəzarət sistemi əhatəli şəkildə tənzimlənir. Qanunun qəbulu xüsusi ilə kiçik və orta biznes subyektləri üçün alternativ maliyyə mənbələrinə əlçatanlığı gücləndirəcək. Bildiyimiz kimi, bir çox sahibkarlar üçün bank kreditlərinə çıxış məhduddur. Maliyyə icarəsi ilkin böyük kapital qoyuluşu olmadan istehsal vasitələri əldə etməyə imkan verən çevik mexanizmdir. Hörmətli Azər müəllim bu barədə fikirlərini ətraflı bölüşdü.

Ölkəmizdə maliyyə icarəsi fəaliyyəti müəyyən təcrübəyə malikdir. Xüsusi ilə kənd təsərrüfatı sektorunda geniş tətbiq olunur. Əsasən aqrotexnikanın, suvarma sistemlərinin və emal avadanlıqlarının fermerlərə verilməsi üçün qurulan bir mexanizmdir. Lakin ölkəmizdə lizinq xidməti yalnız dövlət dəstəyi ilə fəaliyyət göstərir. Ona görə də fermerlər yalnız dövlətdən texnika əldə etmək imkanı qazanıblar. İlkin ödənişlər aşağı səviyyədə müəyyən olunub, ödəniş müddətləri isə uzunmüddətli olaraq tənzimlənib.

Bəzi hallarda dövlət subsidiyalar vasitəsi ilə lizinq ödənişlərinin bir hissəsini kompensasiya edir ki, fermerlərin maliyyə yükü azalsın. Nəticədə kənd təsərrüfatına texniki təminat, mexanikləşmə və istehsal müəyyən qədər artıb. Lakin təkcə dövlət yardımı kifayət deyil, özəl lizinq şirkətlərinin

payı ölkəmizdə aşağıdır və bazarda rəqabət mühiti arzuolunan səviyyədə deyil.

2. Lizinq əməliyyatları, əsasən, kənd təsərrüfatı texnikası ilə məhdudlaşır. Halbuki beynəlxalq təcrübədə lizinq sənaye avadanlıqları, logistika, tikinti, tibb, texnologiya və xidmət sektorlarında da geniş tətbiq olunur. Ona görə də ölkəmiz lizinqin sektorlar üzrə bölgüsünü artırmağa ehtiyac duyur.

3. Lizinq xidmətlərinə çıxış imkanları bütün sahibkarlar üçün bərabər deyil. Xüsusi ilə kiçik fermerlər və mikrosahibkarlar prosedurların mürəkkəbliyindən, məlumat çatışmazlığından və bəzən təminat tələblərinin çətinliklərindən şikayət edirlər.

4. Lizinq müqavilələri üzrə maarifləndirməyə ehtiyac var. Çünki sahibkarlar lizinqin üstünlükləri, riskləri və hüquqi nəticələri barədə tam məlumatlı olmalıdırlar. Beynəlxalq təcrübədə müxtəlif modellərin mövcudluğunu görürük. İnkişaf etmiş ölkələrdə lizinq bazarı investisiyaların mühüm hissəsini təşkil edir. Məsələn, Avropa ölkələrində müəssisələrin əsas vəsaitlərə yatırdığı investisiyaların əhəmiyyətli hissəsi məhz lizinq vasitəsi ilə maliyyələşdirilir.

Gürcüstanda lizinq fəaliyyəti daha çox bazar iqtisadiyyatı prinsipləri əsasında və bank sektoruna inteqrasiya olunmuş şəkildə aparılır. Burada lizinq şirkətlərinin mühüm hissəsi kommersiya banklarının törəmə qurumları kimi fəaliyyətdədir. Nəticədə lizinq xidmətləri digər maliyyə məhsulları ilə birlikdə təqdim olunur. Yəni istehsal avadanlıqları, nəqliyyat vasitələri, tikinti texnikası və digər əsas vəsaitlər lizinq yolu ilə maliyyələşir. Eyni zamanda, onların beynəlxalq maliyyə alətlərinə, mənbələrinə də çıxışı var. Amma Gürcüstanın özündə lizinq sistemi ÜDM-də yenə də yüksək

paya malik deyil. Ona görə də qanun layihəsinin təkmilləşdirilməsi ilə bağlı bir neçə qısa təklifimizi səsləndirmək istəyirik.

1. Lizinq əməliyyatları üzrə vergi təşviqlərinə ehtiyac var. Əks halda özəl sektoru sahəyə cəlb etmək çətin olacaq.

2. Mikro və kiçik sahibkarlar üçün sadələşdirilmiş lizinq mexanizmlərinin, – indi biz bu termini dəyişsək, – maliyyə icarəsi mexanizmlərinin yaradılmasına ehtiyac var.

3. Regionlarda fəaliyyət göstərən sahibkarların istifadəsi üçün prosedurlar daha əlçatan olmalıdır.

4. İstehlakçı hüquqlarının qorunması mexanizmlərinin gücləndirilməsinə ehtiyac var.

Nəhayət, lizinq bazarının inkişafı üçün zəmanət fondları, riskin paylaşma mexanizmləri və dövlət-özəl tərəfdaşlığı burada da geniş tətbiq oluna bilər.

Ümumilikdə, təqdim olunan qanun layihəsi maliyyə sektorunun inkişafına, investisiya mühitinin yaxşılaşdırılmasına və iqtisadi artıma müsbət təsir göstərəcəyinə görə ona səs verəcəyik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, yeni, eyni zamanda, kifayət qədər vacib qanun layihəsidir. Bu gün bizim müzakirə etdiyimiz və qəbul edəcəyimiz qanun layihəsi praktik olaraq maliyyə icarəsi sektorunda yeni münasibətlərin formalaşmasına imkan verəcək.

Hörmətli Azər müəllim tərəfindən yeni qanun layihəsi ilə bağlı ətraflı məlumat təqdim olundu. Konseptual olaraq bir neçə məqama diqqət

çəkmək istərdim. Əvvəla, yeni qanunun qəbul edilməsi, bir tərəfdən, maliyyə icarəsinə, yəni lizinq sahəsində nəzarətin gücləndirilməsinə və yeni institusional tənzimləmələrin tətbiq edilməsinə imkan verəcək. Xüsusən nəzərə alsaq ki, bank və maliyyə sektoru həssas sektordur və o baxımdan bank sektoru ilə bağlı yeni qanun qəbul edilən zaman digər ölkələrdə olduğu kimi, daha məqsədəuyğun olardı ki, Mərkəzi Bank tərəfindən risk qiymətləndirilməsi təqdim olunardı. Çünki xüsusən bank və maliyyə sektorunda yeni qanunun qəbul edilməsi bazar iştirakçılarına və eyni zamanda, həmin sektordakı qaydalara birbaşa təsir göstərir. Risk qiymətləndirilməsi nəticə etibarı ilə həm də qanunun sektora təsirlərinin müəyyənləşdirilməsinə imkan yarada bilər. Baxmayaraq ki, qanunla bağlı arayış təqdim olunub. Eyni zamanda, arayışda da qeyd olunduğu kimi, bir sıra xarici ölkələrin təcrübəsi öyrənilib. Nəzərə alaq ki, maliyyə icarəsini ilk tətbiq edən və qanunvericiliyə gətirən ölkələrdən biri Amerika Birləşmiş Ştatlarıdır. Qanun layihəsində bazar dəyərinin 90 faiz, istismar müddətinin 75 faiz və daha yüksək faiz olması ilə bağlı qeydlərdir. İlk olaraq məhz Amerika Birləşmiş Ştatları təcrübəsindən istifadə olunub. Amma arayışda bizim strateji müttəfiqimiz olan Amerika Birləşmiş Ştatlarının təcrübəsindən istifadə edilməsi qeyd olunmayıb. O baxımdan beynəlxalq təcrübəni nəzərə alaraq, risk qiymətləndirilməsinin tətbiq edilməsi vacibdir.

Azərbaycanda dövlət tərəfindən xüsusən kiçik və orta sahibkarlara texnologiyanın, eyni zamanda, banklar və bir sıra qurumlar tərəfindən avtomobillərin lizinq olaraq təqdimatı həyata keçirilir. Ölkəmizdə kredit bazarının strukturuna və seqmentlərinə diqqət yetirsək, lizinq üzrə banklar tərəfindən təklif edilən faizlər kredit faizləri ilə müqayisədə daha yüksəkdir. Avropa İttifaqında biznes kreditləri üzrə orta faiz 3,5 faiz, istehlak kreditləri

üzrə orta faiz 7 faiz olsa da, amma banklar tərəfindən təklif edilən lizinqlər üzrə faiz dərəcəsi 2 faiz ətrafında dəyişir. O cümlədən region ölkəsi Qazaxıstanda orta kredit faizi 19 faizdir, avtomobillər üçün təklif edilən lizinq kreditləri üzrə faizlər 14 faizdir. Azərbaycanda nağd kreditlər üzrə faizlər orta hesabla 11 faizdən, lizinq üçün faktiki illik faiz dərəcəsi 14 faizdən başlayır. Burada ilkin ödəniş də var. O baxımdan güman edilir ki, yeni qanunun qəbul edilməsi bütövlükdə bu istiqamətdə təklif olunan kredit faizlərinə təsir göstərəcək. Kredit faizlərində azalmaların olması bütövlükdə lizinqə və lizinqlə təklif edilən texnologiyanın əlçatanlığına təsir göstərəcək.

Eləcə də qanun layihəsinə əsasən reyestr qeydiyyatı və hesabatlılığın genişləndirilməsi nəzərdə tutulur. O baxımdan bunun da ayrıca qiymətləndirilməsinə ehtiyac var. Bütövlükdə yeni hesabatlılıq sistemi, eyni zamanda, reyestrin tətbiq edilməsi lizinq xidmətlərinin banklarda təmərküzləşməsinə səbəb olacaqmı? Bazarda olan mövcud iştirakçılar qanun qəbul ediləndə və qanunla müəyyənləşdirilmiş müddət başa çatdıqdan sonra öz fəaliyyətlərini davam etdirə biləcəklərmi?

Qanuna əsasən minimum kapital tələbi qanun qəbul edildikdən sonra müəyyənləşəcək. Amma daha yaxşı olardı ki, həmin minimum kapital tələbi qanunla konkret meyara bağlansın. Bu da mövcud bazarda olan iştirakçıların qanun tətbiq edildikdən sonra öz fəaliyyətlərini davam etdirməsinə imkan yaratsın.

Eyni zamanda, qanun qəbul edildikdən sonra fiziki şəxslərin lizinq xidmətində iştirakına icazə verilməyəcək. Amma bir sıra ölkələrdə hüquqi şəxslərlə yanaşı, fiziki şəxslər də maliyyə icarəsində iştirak edirlər. Düşünürəm ki, bunun da nəzərə alınması və qiymətləndirilməsi vacib olardı.

Bütövlükdə yeni qanun layihəsi bu sektorda tənzimləmələrə və kreditlərə əlçatanlığa birbaşa təsir göstərəcək. O baxımdan mən qanun layihəsini dəstəkləyirəm və səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev**. Çox sağ olun, hörmətli sədr. Hörmətli həmkarlar, qonaqlar, media nümayəndələri. Əlbəttə, mən istərdim, məruzədə bildirilərdi ki, bizdə lizinq haqqında qanun var idi. Yəni bu, arayışda da öz əksini tapıb. O qanun 2003-cü ildə ləğv olunub, adı da elə “Lizinq haqqında” Qanun idi. Yəni o zaman, 1994-cü ildə biz bu qanunu niyə qəbul etdik, sonra 2003-cü ildə niyə ləğv etdik? Bu gün isə başqa ad altında yenidən o qanunu qəbul edirik.

Ümumiyyətlə, qanunun adı ilə bağlı onu demək istəyirəm, əsaslandırılır ki, bu, bir çox ölkələrdə “maliyyə icarəsi” adlanır. Beynəlxalq xüsusi hüququn unifikasiyası institutu tərəfindən 1988-ci il mayın 28-də Ottavada qəbul olunmuş beynəlxalq konvensiyaya istinad olunur. Amma onun adı ingilis dilində belədir: “Convention on international financial leasing”. Yəni burada da maliyyə lizinqindən söhbət gedir. Bizim parlamentarilərin əksəriyyəti ingilis dilini başa düşürlər. Hesab edirəm ki, tərcümə də düzgün tərcümə deyil.

Bundan başqa, hörmətli sədr, əgər biz, doğrudan da, terminlərlə bağlı bu qanunun adını dəyişiriksə... Məsələn, bizim Mülki Məcəllədə o qədər beynəlxalq terminlər dilimizə keçib ki. Onların bir neçəsinin adlarını mən çəkim. Məsələn, “servitut”, “uzufrukt”, “renta”, “oferta”, “aksept”, “subsidiar”, “benefisiar”, öhdəliyə novasiya nəticəsində xitam verilməsi, faktorinq müqaviləsi, françayzinq müqaviləsi, broker müqaviləsi və sair.  Bizim

vətəndaşların çoxu bu sözləri heç başa düşmürlər. Camaatdan soruşsaq ki, maliyyə icarəsi nədir, onlar bilməyəcəklər. Amma lizinq deyən kimi insanların çoxu başa düşəcək. Ona görə ki, ailə üzvləri, qohumları, kimlər isə lizinq müqaviləsi ilə hansı isə əmlak əldə ediblər. Ona görə, birincisi, heç bu adı dəyişməyə ehtiyac yoxdur.

İkincisi, onu qeyd etmək istəyirəm ki, elə qanunun özünün içərisində yenə də lizinq təşkilatlarından söhbət gedir. Məsələn, 21-ci maddədə qeyd olunur ki, lizinq fəaliyyətinə başlamadıqda Mərkəzi Bank tərəfindən reyestrdən çıxarıla bilər və sair.

Bundan başqa, toxunmaq istədiyim ən vacib məsələ ondan ibarətdir ki, məsələn, arayışda qeyd olunur, maliyyə icarəsini, yəni lizinqi səciyyələndirən və fərqləndirən əsas xüsusiyyətlər qanunvericilikdə əks olunmur. Eyni zamanda, bu sahənin dövlətin prudensial tənzimlənməsi və nəzarətdən kənarda qalması maliyyə icarəsi verənlərin maliyyə bazarlarından əlavə resurslar cəlb etməsində çətinliklər yaradır. Bax, bu çətinliklər nədən ibarətdir? Bu barədə dəqiq məlumat verilmir.

2. Qeyd olunur ki, bu qanun layihəsi orta və kiçik sahibkarlıq subyektlərinin maliyyə çıxışının asanlaşdırılması çərçivəsində hazırlanmışdır. Məsələn, bu asanlaşma özünü nədə göstərir? O baxımdan mən hesab edirəm ki, əksinə, bir çox hallarda biz yaxşı adlar adı altında bəzən o biznes mühitini məhdudlaşdıran qanunlar qəbul edirik. Məsələn, mən mətbuatdan oxudum ki, təkcə 2026-cı ildə 3 lizinq təşkilatı ləğv olunub. Yaxşı olardı ki, bizə məlumat verilərdi ki, Azərbaycanda neçə lizinq təşkilatı fəaliyyət göstərir.

Biznes mühitinə kömək etməyin ən yaxşı yolu rəqabət mühiti yaratmaqdır. Bir də bu, kommersiya təşkilatıdırsa, biznes təşkilatıdırsa,

niyə Mərkəzi Bankın səlahiyyətləri bu qədər genişləndirilir? Yenidən lizinq təşkilatlarının qeydiyyatı həyata keçiriləcək. Bu da, hesab edirəm, ona gətirib çıxaracaq ki, bu sahə ciddi nəzarətə götürüləcək. Biznes fəaliyyətində isə nə qədər çox tənzimləmə olacaqsa, nə qədər çox hesabatlılıq olacaqsa, orada biznes inkişaf etməyəcək. Həm Azərbaycan, həm də dünya təcrübəsi bunu göstərir. Ona görə də burada qeyd olunur ki, Mərkəzi Bank icarəyə verənin kapitalının artırılmasını tələb edə bilər. Bir çox geniş səlahiyyətlər verilir. Bu baxımdan ciddi əsaslandırma olmadan bu qanunu biz niyə qəbul edirik? Hesab edirəm ki, bu qanun bu sahədə biznes mühitini daha da pisləşdirəcək və ola bilsin ki, hətta monopoliyanın yaradılmasına xidmət edəcək. Ona görə də mən bunun əleyhinə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Sevil Mikayılova. Buyurun.

**Sevil Mikayılova**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar, media nümayəndələri. Diqqətimizə təqdim olunan Maliyyə icarəsi haqqında qanun layihəsi ölkəmizdə maliyyə sektorunun inkişafı və iqtisadiyyatın dayanıqlı artımının təmin edilməsi istiqamətində mühüm addımlardan biridir. Qanun layihəsinin qəbulu Azərbaycanda maliyyə bazarlarının inkişafına, sahibkarlığın güclənməsinə və ümumi iqtisadi artımın davamlılığının təmin olunmasına xidmət edən mühüm institusional islahat kimi dəyərləndirilməlidir. Belə ki, maliyyə icarəsi üzrə tənzimlənmə nəzarətin hüquqi, təşkilati və iqtisadi mexanizmlərini formalaşdıraraq bazarın daha şəffaf və effektiv fəaliyyətinə şərait yaradacaq. Bu isə maliyyə resurslarına çıxışın genişlənməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qeyd etmək istəyirəm ki, bank sektorunun əsas tənzimləyicisi olan Mərkəzi Bank bu qanun vasitəsilə yeni maliyyə alətini tətbiq etməklə iqtisadiyyata əlavə dəyər qazandırılmasını təmin edə bilər.

Beynəlxalq təcrübədə geniş tətbiq olunan maliyyə icarəsi aləti bazar münasibətlərinin çevikliyini artırır. İcarəçi zəruri aktivlərdən istifadə etməklə öz fəaliyyətini qurur, icarəyə verilən aktiv üzərində mülkiyyət hüququnu qoruyaraq gəlir əldə edir. Bu isə bütövlükdə iqtisadiyyatın daha da dinamikləşməsinə xidmət edir.

Eyni zamanda, xarici şirkətlərin maliyyə icarəsi bazarına çıxışı texnologiya və qabaqcıl idarəetmə təcrübələrinin ölkəyə transferinə şərait yaradır. İnkişaf etmiş bazarlar formalaşaraq lizinq mexanizmlərinin tətbiqini, yerli maliyyə sektorunun keyfiyyətcə yeni mərhələyə keçidini də sürətləndirə bilər. Bu isə xidmətlərin çeşidinin artmasına, maliyyə məhsullarının daha innovativ və çevik olmasına gətirib çıxaracaqdır.

Digər mühüm məqam ondan ibarətdir ki, xarici iştirakçıların bazara daxil olması rəqabəti artırır. Rəqabətin güclənməsi isə xidmət keyfiyyətinin yüksəlməsinə, maliyyə icarəsi şərtlərinin daha əlverişli olmasına və nəticədə sahibkarların daha geniş imkanlar əldə etməsinə səbəb olur. Xüsusi ilə bu proses orta və iri biznes subyektlərinin uzunmüddətli və daha sərfəli maliyyə resurslarına çıxışını asanlaşdırır.

Qanun layihəsində maliyyə icarəsi subyektləri arasında risklərin bölüşdürülməsi və sığortalanması ilə bağlı müddəaların yer alması bazarın dayanıqlılığı baxımından vacibdir. Xüsusi ilə maliyyə icarəsi obyektlərinin zədələnməsi, vaxtından əvvəl sıradan çıxması və ya istifadə zamanı yaranan risklərin kim tərəfindən daşınmasının aydın şəkildə tənzimlənməsi

hüquqi mübahisələrin azalmasına və biznes mühitində etimadın artmasına səbəb olur.

Beləliklə, Maliyyə icarəsi haqqında qanun layihəsi Azərbaycanda maliyyə bazarlarının dərinləşdirilməsi, sahibkarlığın inkişafı və iqtisadi artımın sürətləndirilməsi baxımından mühüm institusional addımdır.

Bank sektorunun tənzimləyicisi kimi cıxış edən Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yeni maliyyə alətinin tətbiqi iqtisadiyyata əlavə dəyər qazandıracaq, investisiya imkanlarını genişləndirəcək və bazarın çevikliyini  də artıracaq.

Diqqətinizə çatdırmaq istəyirəm ki, beynəlxalq reytinq agentliyi "S&P" Azərbaycan Mərkəzi Bankı tərəfindən "2024–2026-cı illərdə maliyyə sektorunun inkişaf strategiyası" çərçivəsində effektiv tənzimlənmə və nəzarət mexanizmlərinin tətbiqi ilə yerli bank sektorunda qabaqcıl beynəlxalq təcrübənin mənimsənilməsinin sürətləndiyi qənaətindədir.

Ona görə də ümid edirik ki, bu qanun iqtisadi artımın sürətlənməsinə, biznes mühitinin yaxşılaşmasına və investisiya imkanlarının genişlənməsinə mühüm töhfə verəcək.

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Vasif Qafarov. Buyurun.

**Vasif Qafarov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Təqdim olunan Maliyyə icarəsi haqqında qanun layihəsi ölkədə maliyyə icarəsi münasibətlərinin vahid hüquqi çərçivədə tənzimlənməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bu qanun layihəsi maliyyə bazarlarının inkişafına, sahibkarlığın genişlənməsinə, eləcə də investisiya

mühitinin yaxşılaşdırılmasına xidmət edən mühüm normativ hüquqi akt kimi müsbət qiymətləndirilməlidir.

Layihədə maliyyə icarəsinin anlayışı, subyektləri, müqavilə münasibətləri, tərəflərin hüquq və vəzifələri, habelə dövlət tənzimlənməsi və nəzarət mexanizmləri sistemli və aydın şəkildə müəyyən edilib.

Qanun layihəsinin təqdirəlayiq cəhəti ondan ibarətdir ki, maliyyə icarəsi institutunun hüquqi əsasları ardıcıl və sistemli formada təsbit olunub, maliyyə icarəsi müqaviləsinin şərtləri və strukturu ətraflı tənzimlənib, tərəflərin – icarəyə verən, icarəçi və satıcının hüquq və vəzifələri müəyyən edilib. Eyni zamanda, bu sahədə dövlət nəzarəti və tənzimləmə mexanizmləri, o cümlədən Mərkəzi Bankın rolu nəzərdə tutulub və layihənin hazırlanmasında beynəlxalq təcrübə nəzərə alınıb.

Layihənin daha da təkmilləşdirilməsi və tətbiqinin effektivliyinin artırılması məqsədi ilə aşağıdakı təkliflərin də nəzərə alınmasını məqsədəuyğun hesab edirəm.

İlk olaraq, hesab edirəm ki, mübahisələrin alternativ həlli mexanizmlərinin, xüsusi ilə mediasiya və arbitraj institutlarının qanunda ayrıca təsbit edilməsi vacibdir. Çünki maliyyə münasibətlərində operativ və ixtisaslaşmış mübahisə həlli mexanizmləri sahibkarlıq subyektləri üçün əlavə hüquqi təminat yaradır və bu, eyni zamanda, məhkəmə yükünü azaldır.

Bununla yanaşı, qanun layihəsinə maliyyə icarəsi münasibətlərində iştirak edən fiziki şəxslərin hüquqlarının qorunmasına dair xüsusi normaların da əlavə edilməsi zəruridir. Çünki bu sahədə informasiya asimmetriyası mövcuddur və istehlakçıların daha zəif tərəf olması onların əlavə hüquqi müdafiəsini tələb edir.

Eyni zamanda, rəqəmsal iqtisadiyyatın inkişafı nəzərə alınaraq elektron müqavilələrin bağlanması, rəqəmsal identifikasiya və onlayn maliyyə icarəsi xidmətlərinin hüquqi tənzimlənməsi ilə bağlı müddəaların qanun layihəsinə daxil edilməsi də məqsədəuyğun olardı. Çünki bu, hesab edirəm ki, xidmətlərin əlçatanlığını artıracaq və bazarın genişlənməsinə şərait yaradacaqdır.

Həmçinin risklərin bölüşdürülməsi ilə bağlı müddəaların daha da konkretləşdirilməsi, xüsusi ilə də fors-major halları, sığorta mexanizmləri və texniki nasazlıqlarla bağlı risklərin ayrıca tənzimlənməsi də vacibdir. Çünki bu, tərəflər arasında hüquqi qeyri-müəyyənliyi aradan qaldıraraq müqavilə münasibətlərinin sabitliyini təmin edəcəkdir.

Layihədə 13-cü maddə ümumi çərçivə təqdim etsə də, hesab edirəm ki, əlavə konkretləşdirməyə də ehtiyac var.

Bundan əlavə, maliyyə icarəsi bazarının inkişafını təşviq etmək məqsədi ilə müəyyən stimullaşdırıcı mexanizmlərin nəzərdə tutulması da məqsədəuyğun olardı. Çünki bu, hesab edirəm ki, xüsusi ilə kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxışını asanlaşdıracaq və investisiya fəallığını artıracaqdır.

Nəhayət, nəzarət və hesabatlılıq mexanizmlərinin beynəlxalq standartlara uyğun daha da gücləndirilməsini vacib hesab edirəm. Çünki bu, maliyyə sabitliyinin qorunmasına və sektorun şəffaf inkişafına xidmət edəcəkdir.

Bütövlükdə, hesab edirəm ki, Maliyyə icarəsi haqqında qanun layihəsi müasir iqtisadi tələblərə cavab verən, sistemli və əhatəli hüquqi sənəd olmaqla, ümumilikdə, müsbət qiymətləndirilməlidir. Qeyd olunan təkliflərin

nəzərə alınması onun tətbiqinin effektivliyini artıraraq maliyyə icarəsi bazarının inkişafına əlavə təkan verə bilər.

Diqqətinizə görə təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Sonuncu çıxış. Samir Vəliyev. Buyurun.

**Samir Vəliyev.** Hörmətli xanım sədr, birinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə təqdim edilən Maliyyə icarəsi haqqında qanun layihəsinin strukturu və məzmunu, hesab edirəm ki, hazırkı şəraitdə formalaşmaqda olan müvafiq çağırışlara tam şəkildə uyğundur.

Qeyd etmək lazımdır ki, qanun layihəsinin hazırlanmasının zərurəti bir sıra mühüm amillərlə bağlıdır. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, beynəlxalq termin olan “lizinq” sözü dilimizə tələffüz olunduğu kimi keçmiş, yəni lizinq kimi ifadə olunmuşdur. Lakin hazırda təqdim olunan qanun layihəsində isə onun maliyyə icarəsi kimi işlədilməsi, hesab edirəm ki, daha düzgün və məqsədəuyğundur.

Düşünürəm ki, yeni qanunun qəbul edilməsi, maliyyə icarəsi ilə bağlı vahid yanaşmanın təmini, terminlərin eyniləşdirilməsi, lizinq adı ilə təqdim olunan fəaliyyətin hüquqi statusu, mənası və mahiyyəti bu xidmətin iştirakçıları tərəfindən daha aydın qəbul olunacaq.

Onu da bildirək ki, bu xidmətin alıcıları tərəfindən lizinq adı ilə təqdim edilən sözügedən mexanizmin icarəyə aid olunmasından daha çox onun sanki kredit münasibəti olduğu barədə müvafiq rəy formalaşmaqda idi. Bu sahədə hüquqi müəyyənliyin yaradılması nöqteyi-nəzərindən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi plenumunun müvafiq qərarlarının xüsusi əhəmiyyətə malik olduğunu qeyd etmək vacibdir.

Fikrimcə, hazırkı müzakirə kontekstində bir daha xüsusi ilə vurğulamaq lazımdır ki, beynəlxalq təcrübədə icarə prosesinin 2 növü diferensiallaşdırılmışdır. Birinci istiqamət əməliyyat icarəsini özündə ehtiva edir, ikinci istiqamətdə isə maliyyə icarəsi nəzərdə tutulur.

Hazırda maliyyə icarəsinin pul və əmtəə dövriyyəsinin genişləndirilməsində, iqtisadi aktivlikdə, hüquqi və fiziki şəxslərin maliyyə resurslarına çıxış imkanlarının artırılmasında böyük rolu mövcuddur.

Zənnimcə, müasir iqtisadiyyatda bu mexanizm maliyyə icarəsinə çıxış imkanları əldə edənlərin ehtiyac və tələblərinin ödənilməsinə güclü müsbət impuls verməkdədir. Düşünürəm ki, belə vəziyyətdə aktual tələblərə uyğun maliyyə icarəsi prosesinin tənzimlənməsi, bu sahədə iştirakçı tərəflərin məsuliyyətinin daha da artırılması təkmilləşdirilmişdir. Effektiv nəzarət, tənzimlənmə və koordinasiya mexanizmlərinin formalaşması çox vacibdir.

Fikrimcə, təqdim olunan layihədə əks olunan icarəyəverən, icarəçi və satıcı arasında maliyyə icarəsi münasibətlərinin qurulması, həmçinin bütövlükdə maliyyə icarəsi məsələlərinin reallaşdırılması ölkəmizdə makro və mikro müstəvidə qeyd olunacaq iqtisadi göstəricilərin formalaşması prosesinə, işgüzar fəallığın stimullaşdırılmasına müvafiq müsbət təkanlar verəcəkdir.

Maliyyə icarəsi ilə bağlı aktual çağırışlara cavab verən qanunvericilik bazasının formalaşdırılması, hesab edirəm ki, iqtisadiyyatımızın həm maliyyə, həm də real sektorda səmərəliliyinin artırılmasına, eyni zamanda, çevikliyin, operativliyin yüksəlməsinə xidmət edəcəkdir.

Eyni zamanda, əminəm ki, maliyyə icarəsi mexanizminin effektivliyinin yüksəldilməsi respublika iqtisadiyyatında investisiya axınlarının

genişlənməsinə, eləcə də iqtisadiyyatımızda innovativ sahələrin qabaqlayıcı imkanlarına, inkişafına dəstək olacaqdır.

Qeyd olunanları nəzərə alaraq, qanun layihəsinin birinci oxunuşda qəbul edilməsini məqsədəmüvafiq hesab edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Samir müəllim.

Azər müəllim, Sizin çıxışınızı qaldırılan suallara cavab kimi qiymətləndirək? Mən bilmirəm, Toğrul müəllim çıxış etmək istəyər, yoxsa yox? Azər müəllim, buyurun.

**Azər Əmiraslanov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, mən hörmətli həmkarlarımıza qanun layihəsi ilə bağlı səsləndirdikləri fikirlərə, təkliflərə, tövsiyələrə görə, hətta opponent qeydlərinə görə təşəkkürümü bildirirəm.

Ümumi şəkildə qeyd etmək lazımdır ki, bugünkü qanun layihəsi maliyyə bazarının inkişafının çox mühüm seqmenti olan maliyyə lizinqi və yaxud maliyyə icarəsi şirkətləri ilə bağlıdır. Bu, ilk addımdır. Bu layihə bütövlükdə maliyyə bazarının məhz bu elementinin fəaliyyətinin reqlamentləşdirilməsinə yönəldilib.

Hörmətli həmkarım Zahid Oruc qeyd etdi, gələcəkdə bu hüquqi baza formalaşdıqdan sonra stimullaşdırıcı tədbirlər nəzərdə tutula bilər, maliyyə icarəsinin inkişaf etdirilməsi ilə bağlı planlar, strateji yanaşmalar mövcud ola bilər. Bəli, əgər bugünkü təcrübəyə nəzər yetirmiş olsaq, maliyyə icarəsi üçün bu gün əlavə dəyər vergisindən azadolma kimi güzəşt tətbiq olunur. Amma daha geniş bir güzəşt paketinin tətbiq edilməsi də məqsədəuyğundur. Gələcəkdə hökumət tərəfindən, Mərkəzi Bank

tərəfindən bazarın bu seqmentinin inkişafı üçün belə bir yanaşma mümkündür.

Burada bir sıra fikirlər səsləndi, xüsusi ilə də hörmətli həmkarımız Qüdrət Həsənquliyev söylədi ki, maliyyə lizinqi, maliyyə icarəsi biznes fəaliyyətidir, əgər biznes fəaliyyətidirsə, burada tamam azadlıq verilməlidir, bu fəaliyyət tənzimlənməməlidir, reqlamentləşməməlidir.

Bilirsinizmi, biz ilk növbədə maliyyə bazarının xüsusiyyətlərini bilməliyik. Maliyyə bazarı dünyanın heç bir yerində tamamilə sərbəst buraxılmır. Buna görə də Mərkəzi Bankın əsas mandatı, əsas missiyası maliyyə bazarının tənzimlənməsindən ibarətdir. Maliyyə bazarında həddindən artıq çox iştirakçılar var. Bunlar banklardır, sığorta şirkətləridir, bank olmayan kredit təşkilatlarıdır. Bu gün bu bazara maliyyə lizinqi şirkətləri daxil olur. Burada çox böyük məbləğdə – milyonlarla manat borc öhdəlikləri yaranır. Belə bir şəraitdə Mərkəzi Bank, təbii ki, maliyyə lizinqi şirkətlərinin fəaliyyətini reqlamentləşdirməlidir. Hər bir halda bunu qeyd etmək lazımdır ki, maliyyə lizinqi şirkətləri özləri də maliyyə bazarının subyektləridir.

Biz bir daha qeyd etmək istərdik ki, maliyyə bazarının, Mərkəzi Bankın, maliyyə requlyatorunun mandatını, fəaliyyətinin missiyasının məqsədini də nəzərə almalıyıq.

Qeyd olundu ki, nə üçün əvvəl qanunlar var idi, indi yeni bir qanun təqdim olunur. Elə yeni qanunun təqdim olunmasının zərurəti də onunla bağlıdır ki, əvvəllər bu tənzimləmə fraqmental xarakter daşıyırdı. Vaxtilə lizinq fəaliyyəti haqqında qanun mövcud idi, sonra bu tənzimləmə Mülki Məcəlləyə köçürüldü. Belə bir pərakəndəlik şəraitində yeni, vahid hüquqi çərçivənin yaradılmasına ehtiyac var idi.

Burada bir məqam da ondan ibarətdir ki, biz lizinq fəaliyyəti dedikdə bunun çox geniş istiqamətləri var. Burada operativ lizinq mövcuddur və buna paralel olaraq biz bu gün maliyyə lizinqinin fəaliyyəti ilə bağlı qanunu təqdim edirik. Operativ lizinq isə Mülki Məcəllə ilə tənzimlənir.

Bu gün bu layihənin təqdim olunmasının məqsədi də bundan ibarətdir ki, bu pərakəndəlik aradan qaldırılır və "maliyyə lizinqi" anlayışının vahid terminologiyası təqdim olunur, aidiyyəti qurumlar da buna uyğun olaraq özünün müvafiq normativ tənzimləmə aktlarını qəbul edəcəkdir.

Hörmətli xanım sədr, hər bir halda bu qanun layihəsi ilkin bir təşəbbüsdür. Gələcəkdə bu qanunun tətbiq edilməsi ilə bağlı bir sıra məsələlər ortaya çıxa bilər, bunun təkmilləşməsi ilə bağlı təşəbbüslər ola bilər. Hər bir halda biz hesab edirik ki, belə bir qanun layihəsinin qəbul edilməsi bizim iqtisadi siyasətimiz üçün olduqca vacibdir. Belə ki, qarşıda dayanan əsas vəzifə, məqsəd iqtisadiyyatımızın maliyyələşdirilməsi üçün şaxələnmiş mənbələrin tapılmasıdır.

Bu gün maliyyə lizinqi məhz bank kreditlərinə alternativ kimi təqdim olunur. Ona görə ki, kreditlərdən fərqli olaraq burada girov mexanizmi yoxdur, girov tətbiq olunmur və burada məsuliyyət bölüşdürülmüş olur.

O ki qaldı nəyə görə, məsələn, bəzi ölkələrin təcrübəsinə istinad olunmur. Hörmətli həmkarımız Vüqar müəllim qeyd etdi, burada ayrı-ayrı ölkələrin təcrübəsinə istinaddan da çox beynəlxalq maliyyə lizinqi standartları var, müvafiq konvensiya var, Ottava konvensiyası adlanır. Ümumiləşmiş beynəlxalq təcrübənin əsas götürülməsi, o cümlədən beynəlxalq mühasibat standartlarına istinad edilməsi daha məqsədəuyğun hesab edilir.

Bir daha həmkarlarımıza qeydlərinə görə təşəkkürümüzü bildiririk. Hesab edirəm ki, bu qanun layihəsi bizim maliyyə bazarlarımıza, real sektorun investisiya imkanlarının genişlənməsinə öz töhfəsini verəcək.

Təşəkkür edirəm, hörmətli xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim, ətraflı məlumat verdiniz. Azər müəllimin çıxışı ilə biz kifayətlənirik. Lazım olsa, Azər müəllim, qaldırılan məsələ ilə bağlı sonra işçi qaydada hörmətli Qüdrət müəllim ilə danışa bilərsiniz.

Hörmətli həmkarlar, biz müzakirələri bitirdik. Mən qanun layihələrini bir-bir səsə qoyacağam.

İndi isə Maliyyə icarəsi haqqında qanun layihəsinə birinci oxunuşda münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə 11-ci məsələdə olan qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 102
Nəticə: Qəbul edildi

Çox sağ olun, bu qanun layihəsi də birinci oxunuşda qəbul edildi.

Hörmətli deputatlar, bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi səylərə görə "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülmüşdür.

Cənab Prezident aprelin 26-da mükafatın təqdimolunma mərasiminin iştirakçılarına müraciət ünvanlamış və bu mötəbər mükafata layiq görülməyinə görə öz minnətdarlığını bildirmişdir.

Hörmətli deputatlar, bu mükafat bütün çətinliklərə baxmayaraq, regionumuzda sülhün, sabitliyin və əməkdaşlığın bərqərar olunması naminə möhtərəm cənab Prezidentin göstərdiyi böyük səylərin beynəlxalq ictimaiyyət tərəfindən də qəbul edilməsi və yüksək qiymətləndirilməsi deməkdir.

30 il ərzində torpaqlarının işğalı ilə üzləşmiş və münaqişə şəraitində yaşamış xalqın nümayəndələri olaraq biz möhtərəm cənab Prezidenti bu mötəbər mükafata layiq görülməsi münasibəti ilə ürəkdən təbrik edir, cənab Prezidentə sülh və qarşılıqlı anlaşma naminə yorulmaz fəaliyyətində davamlı uğurlar arzulayırıq. *(Alqışlar.)*

Çox sağ olun. Hörmətli həmkarlar, iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı sizə deyiləcək. Sağ olun.

## EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

*27 aprel 2026-cı il*

**Afət Həsənova.** Müzakirəmizə təqdim olunan "Azərbaycan Respublikası Hökuməti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi arasında Ev Sahibi Ölkə Sazişi"nin təsdiq edilməsi haqqında qanun layihəsini dəstəkləyir, hər birinizi bu layihənin lehinə səs verməyə çağırıram.

Fikrimcə, İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 2021-ci il noyabrın 27-də Aşqabad şəhərində keçirilmiş 25-ci iclasında əsası qoyulmuş və nəticə etibarı ilə hazırlanmış bu saziş ölkəmizin beynəlxalq enerji arenasında atdığı ən sistemli və strateji addımlardan biridir. Bu sazişlə biz artıq regionun "yaşıl enerji qovşağı" statusumuzu hüquqi cəhətdən də rəsmiləşdiririk. Bu saziş ölkəmizin təkcə neft və qaz ixracatçısı deyil, həm də müsbət mənada gələcəkdə ekoloji cəhətdən dünyaya öz töhfəmizi vermək məqsədi daşımağımızın göstəricisidir.

Qeyd edim ki, mərkəzin Bakı şəhərində yerləşməsi, ona beynəlxalq hüquqi şəxs statusunun verilməsi və bu sazişlə müəyyən olunan imtiyazlarla təmin olunması bu sahəyə verilən əhəmiyyətin bariz

göstəricisidir. Bütün bunlarla yanaşı, düşünürəm ki, əsas hədəfimiz nəticə etibarı ilə insan faktoru və vətəndaşlarımızın rifahı olmalıdır.

Belə ki, təmizlik və yaşıllıq strategiyası şəhərimizin real mənzərəsi ilə, xüsusi ilə Bakı yollarındakı vəziyyətlə mütləq şəkildə uzlaşmalıdır. Bu gün hamımız şahidiyik ki, şəhərimizin mərkəzi küçələri artıq mövcud avtomobil yükünü daşıya bilmir. Tarixi binaların və arxitekturanın qorunması səbəbindən yolları genişləndirmək praktiki olaraq mümkün deyil. Lakin biz belə bir məhdudiyyət içərisində mövcud dar zolaqları, təəssüf ki, faktiki istifadə olunmayan və ya çox nadir istifadə edilən velosiped yolları üçün zəbt edirik.

Beynəlxalq təcrübəyə nəzər salsaq görərik ki, Almaniya və ya Niderlandda velosiped zolaqları avtomobil yolunun içində canlı hədəf kimi yox, piyada zonalarında, nəqliyyatdan tam təcrid olunmuş şəkildə planlaşdırılmışdır.

Lakin hazırkı vəziyyətdə yuxarıda qeyd etdiyim bu tədbirlər onsuz da dar olan yollarımızı bir qədər də daraldır, həm də bunun fonunda sürücülərimizə maneələr yaradır. Misal olaraq qeyd edim ki, “Park et və get” sistemi tam qurulmadan yolların daraldılması, fikrimcə, yolverilməzdir. Düşünürəm ki, qurulacaq bu Təmiz Enerji Mərkəzi, sadəcə, bir ofis olmamalı, eyni zamanda, nəqliyyatın elmi əsaslarla yenidən planlanması üçün bir beyin mərkəzinə çevrilməlidir. Eyni zamanda, biz bu beynəlxalq mərkəzə ev sahibi olmaqla bərabər, vətəndaşlarımızın da rahatlığını, rifahını təmin etməli, hər zaman olduğu kimi, onların qayğısına qalmalıyıq.

**Asif Əsgərov.** Bu gün biz Azərbaycanın mənəviyyat salnaməsində silinməz izlər qoymuş, xalqımızın qəlbində həm bir alim, həm də şəfqət və zəriflik rəmzi kimi ucalan görkəmli şəxsiyyət, akademik Zərifə xanım

Əliyevanın əziz xatirəsini ehtiramla yad edirik. Zərifə xanım peşəkar fəaliyyətində oftalmologiya elminin ən çətin zirvələrini fəth etmiş, tibb tariximizə adını qızıl hərflərlə yazdırmışdır. Lakin Zərifə xanımın ucalığı təkcə onun elmi nailiyyətləri ilə deyil, həm də Azərbaycan qadınının ən ali xüsusiyyətlərini özündə birləşdirən mənəvi dünyası ilə ölçülür.

Onun həyat yolu təkcə öz taleyi ilə məhdudlaşmır. O, hər şeydən öncə, fədakar bir ana, ailə dəyərlərinin sadiq qoruyucusu və böyük bir siyasi irsin ən etibarlı dayağı idi. Onun həyatı bir ailənin daxilində başlayıb, amma bir millətin yaddaşına çevrilib. Ulu Öndər Heydər Əliyev kimi qüdrətli bir liderin yanında olmaq, sadəcə, həyat yoldaşı olmaq demək deyildi. Bu, zamanın ağırlığını bölüşmək, məsuliyyəti səssizcə daşımaq, ən çətin anlarda belə sarsılmamaq demək idi. Zərifə xanım bu yükü təmkinlə və böyük ləyaqətlə daşımışdır.

Zərifə xanımın böyüklüyü ondadır ki, o, özünü ön plana çıxarmadan başqalarının həyatında işıq ola bilirdi. Biz bu gün onun haqqında danışarkən, əslində, bir qadının necə zərifliklə güclü, necə sakitliklə təsirli, necə sadəliklə böyük ola biləcəyini xatırlayırıq.

Zərifə xanımın bir ana kimi ən böyük xidməti isə Azərbaycanın bu günü və gələcəyi üçün layiqli övladlar böyütməsidir. O, ailəni, sadəcə, qoruyan deyil, ailə anlayışını ucaldan qadın idi.  O, ailədə yalnız bir ana deyildi, dəyərlərin qoruyucusu, mənəvi tarazlığın təminatçısı idi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadaraq bu gün ölkəmizin taleyüklü məsələlərini məharətlə həll edir və haqlı olaraq xalqın böyük inam və güvənc yerinə çevrilmişdir.

Zərifə xanımın mənəvi saflığı və nəcibliyi bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətində, onun insanlara olan sonsuz sevgisində və xeyirxahlıq missiyasında öz təzahürünü tapır. Biz Mehriban xanımın simasında Zərifə xanımın o zərif və məğrur ruhunun davamını görürük. Bu, sadəcə, ailə bağları deyil, bu, mənəvi estafetin davamıdır.

Zərifə xanım səmimiyyəti, təvazökarlığı və humanizmi ilə əsl ziyalı qadın obrazını zirvəyə daşımışdır. Özündən sonra mənalı həyatını yaşadan əməlləri və insanların yaddaşında yaşayan parlaq xatirəsi ilə həm də elə bizim müasirimizdir. Çünki hamı tərəfindən eyni məhəbbətlə sevilmək, hər zaman minnətdarlıq hissi ilə xatırlanmaq hər kəsə qismət olan xoşbəxtlik deyil.

Onun əziz xatirəsi hər bir azərbaycanlının qəlbində daim yaşayacaq, gələcək nəsillər üçün örnək olmağa davam edəcəkdir.

**Fariz İsmayılzadə.** Bildiyiniz kimi, 2026-cı il aprelin 26-da İspaniyanın Gernika-Lumo şəhərinin Şurası, Gernika Sülh Muzeyi və Sülh Araşdırmaları Mərkəzinin qərarı ilə 2026-cı ilin “Sülh və Barışıq üçün Gernika mükafatı”na ölkəmizin Prezidenti cənab İlham Əliyev layiq görülmüşdür. Belə mötəbər sülh mükafatı ilə Azərbaycanın liderinin təltif olunması bir daha sübut edir ki, onun irəli apardığı sülh gündəliyi regionda yeni müsbət reallıq yaradır, dünyanın aparıcı siyasi və intellektual mərkəzləri tərəfindən dəstəklənir, digər münaqişə zonaları üçün dəyərli örnək kimi çıxış edir.

Sülh mükafatı Prezident İlham Əliyevin liderlik bacarıqlarını, uzaqgörən siyasətini, etibarlı partnyor olduğunu bir daha sübut edir. Təsadüfi deyil ki, məhz bu keyfiyyət və nailiyyətlərə görə bir neçə ay öncə dövlət başçımız

digər mötəbər mükafat olan “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülmüşdür. Eyni zamanda, Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampın yeni yaratdığı Sülh Şurasına dəvət almışdır.

Əminəm ki, Azərbaycanın milli maraqlarının müdafiəsində qətiyyətli addımlar atan və qlobal siyasətdə sülh gündəliyini dəstəkləyən Prezident İlham Əliyev dünyanın digər mükafatlarına da layiq görüləcək.

Bu mükafatlar, eyni zamanda, ölkəmizin artan beynəlxalq nüfuzunun, hörmətinin və qlobal siyasətdə əhəmiyyətli rolunun göstəricisidir.

Sülh gündəliyinin sürətlə irəli getdiyi bir zamanda Nyu-York şəhərinin yeni seçilmiş merinin Azərbaycan barədə məsuliyyətsiz bəyanatı bizi məyus edir. Qarabağ münaqişəsi barədə yazarkən, evlərindən qovulmuş bir milyon azərbaycanlı barədə bir kəlmə yazmayan bu siyasətçi tarixi reallığı təhrif edir, erməni lobbisinin radikal antisülh tezislərini təkrar edir. Belə bəyanatlar yolverilməzdir və sülh prosesinə ciddi şəkildə zərər vurur.

**Fatma Yıldırım.** Müzakirəyə çıxarılan “Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası ilə əlaqədar təşkilati tədbirlər və maliyyə məsələləri barədə əlavə Saziş”in təsdiq edilməsi haqqında qanun layihəsi ölkəmizin beynəlxalq nüfuzunun daha da möhkəmləndirilməsi baxımından son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Ümumdünya Şəhərsalma Forumu şəhərlərin davamlı inkişafı, urbanizasiya proseslərinin düzgün idarə olunması, müasir infrastrukturun qurulması və insanların həyat keyfiyyətinin yüksəldilməsi kimi qlobal məsələlərin müzakirə olunduğu ən nüfuzlu platformalardan biridir. Belə mötəbər bir tədbirin 2026-cı ildə məhz Bakıda keçirilməsi Azərbaycanın

son illərdə əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin, həyata keçirilən genişmiqyaslı quruculuq və abadlıq işlərinin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin bariz nümunəsidir.

Bakı şəhəri artıq bir çox mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edib və bu təcrübə WUF13 çərçivəsində daha da zənginləşəcək. Forum çərçivəsində ölkəmiz öz şəhərsalma təcrübəsini, “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarını, innovativ yanaşmalarını dünya ictimaiyyətinə təqdim etmək imkanı əldə edəcək.

Xüsusi ilə vurğulamaq istəyirəm ki, bu forumun əhəmiyyəti işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən bərpa və yenidənqurma işləri fonunda daha da artır. Bu gün biz Qarabağda tamamilə yeni bir urbanizasiya modelinin əsasını qoyuruq. Müasir standartlara cavab verən şəhərlər, kəndlər, infrastruktur layihələri – bütün bunlar dayanıqlı inkişaf prinsiplərinə əsaslanır. WUF13 bu təcrübənin beynəlxalq platformada təqdim olunması üçün unikal imkan yaradacaq.

Qarabağda həyata keçirilən “ağıllı şəhər” və “ağıllı kənd” layihələri artıq dünya miqyasında maraq doğurmaqdadır. Bu baxımdan forum çərçivəsində Azərbaycanın təqdim edəcəyi model həm region, həm də bir çox ölkələr üçün nümunə ola bilər. Bu isə ölkəmizin siyasi, iqtisadi və humanitar nüfuzunu daha da gücləndirəcək.

Eyni zamanda, belə beynəlxalq səviyyəli tədbirin keçirilməsi ölkəmizin iqtisadi potensialının daha da genişlənməsinə, turizm imkanlarının artırılmasına və investisiya mühitinin cəlbediciliyinin yüksəlməsinə də müsbət təsir göstərəcək. Forum günlərində Bakının qlobal diqqət mərkəzinə çevrilməsi müxtəlif ölkələrdən olan nümayəndələrlə yeni iqtisadi

əlaqələrin qurulmasına və biznes dairələri arasında əməkdaşlığın inkişafına zəmin yaradacaq.

Hörmətli həmkarlar, təqdim olunan qanun layihəsi Azərbaycanın gələcəyə baxışını, onun beynəlxalq arenadakı rolunu və iddialarını əks etdirən mühüm siyasi addımdır. Hesab edirəm ki, qanun layihəsinin qəbul edilməsi həm ölkəmizin beynəlxalq mövqelərinin güclənməsinə, həm də Qarabağ da daxil olmaqla bütün regionlarımızın davamlı inkişafına xidmət edəcək.

Mən bu qanun layihəsinin lehinə səs verəcəm və həmkarlarımı da lehinə səs verməyə çağırıram.

**Jalə Əliyeva.** Bu günlərdə ölkə başçısı cənab İlham Əliyevə “Sülh və Barışıq üçün Gernika mükafatı”nın verilməsi Azərbaycanın beynəlxalq aləmdə qazandığı növbəti mühüm uğur kimi xüsusi əhəmiyyət daşıyır.

Son illərdə Azərbaycan regionda yeni reallıqlar formalaşdıraraq sülhün və əməkdaşlığın təşviqinə mühüm töhfələr verib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmiz yalnız öz milli maraqlarını təmin etməklə kifayətlənməyib, həm də bölgədə sabitliyin və inkişafın əsas təminatçılarından birinə çevrilib. Məhz bu uzaqgörən siyasət beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir və “Gernika” kimi mükafatlarla təsdiq olunur. Bu mükafat Azərbaycanın sülh gündəliyinin beynəlxalq səviyyədə qəbul olunduğunu göstərir.

Regionda kommunikasiyaların açılması, iqtisadi əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı etimadın möhkəmləndirilməsi istiqamətində atılan addımlar ölkəmizin konstruktiv mövqeyini aydın şəkildə nümayiş etdirir. Bu gün Azərbaycan yalnız regional deyil, daha geniş coğrafiyada etibarlı tərəfdaş və təşəbbüskar dövlət kimi tanınır.

Eyni zamanda, bu təltif ölkəmizin artan beynəlxalq nüfuzunun bariz göstəricisidir. Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri və qlobal əməkdaşlıq layihələrində fəal iştirak edən Azərbaycan dünya üçün mühüm tərəfdaş statusunu daha da möhkəmləndirir.

Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində ölkəmiz beynəlxalq münasibətlər sistemində söz sahibi olan dövlətlərdən birinə çevrilib.

"Gernika" mükafatı həm də Azərbaycanın gələcək uğurlarına verilən bir stimul kimi qiymətləndirilə bilər. Bu, ölkəmizin seçdiyi inkişaf yolunun düzgünlüyünü təsdiqləyir və qarşıda duran məqsədlərə daha inamla irəliləmək üçün əlavə motivasiya yaradır.

Prezident İlham Əliyevə bu nüfuzlu mükafatın verilməsi Azərbaycanın diplomatik qələbələrinin davamı, dövlətimizin artan gücünün və beynəlxalq nüfuzunun növbəti təsdiqidir. Bu uğur həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə Azərbaycanın mövqelərini daha da gücləndirən mühüm hadisə kimi tarixə düşür.

**Malik Həsənov.** Xarici siyasətində ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verən Azərbaycanın bu sahədə qazandığı uğurlar davamlılığı ilə diqqətdədir. Azərbaycan ənənəvi tərəfdaşları ilə əlaqələrini yeni prioritetlər üzrə inkişaf etdirmək istiqamətində mühüm addımlar atır. Qarşılıqlı etimad mühitinin qorunması dövlətimizin xarici siyasətinin əsas prinsiplərindəndir. Azərbaycanı özünə dost, etibarlı tərəfdaş kimi qəbul edən ölkələrdən biri də Latviyadır. Latviya Prezidenti Edqars Rinkeviçsin ölkəmizə rəsmi səfəri iki ölkə arasında münasibətlərin tarixinə nəzər salmağı bir zərurətə çevirir. Belə ki, Latviya Azərbaycanın müstəqilliyini 1992-ci ilin yanvarında tanıyıb. İki ölkə arasında diplomatik münasibətlər 1994-cü ilin yanvarında

qurulmuşdur. Azərbaycanın Latviyada Səfirliyi 2005-ci ildə, Latviyanın Azərbaycanda Səfirliyi isə 2006-cı ildə açılmışdır.

Azərbaycan Latviya ilə münasibətlərin inkişafına xüsusi əhəmiyyət verir və iki ölkə arasında əməkdaşlıq siyasi, iqtisadi və humanitar sahələri əhatə edir. Ölkələr arasında əlaqələrin inkişafında əhəmiyyətli rol oynayan əsas faktorlardan biri, təbii ki, qarşılıqlı səfərlərdir. Ötən müddət ərzində ölkələrimiz arasında qarşılıqlı etimada, anlaşmaya, hörmətə əsaslanan münasibətlər qurulub. Dövlət və hökumət başçıları, parlament sədrləri və hökumət üzvləri səviyyəsində çoxsaylı qarşılıqlı səfərlər həyata keçirilib.

Prezident İlham Əliyevin 2017-ci ildə Latviyaya rəsmi səfəri zamanı imzalanmış "Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə" əlaqələrimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Latviya Prezidentinin sözügedən səfəri çərçivəsində prezidentlərin keçirilən təkbətək və geniş tərkibdə görüşlərində, mətbuata birgə bəyanatlarında, Azərbaycan–Latviya biznes-forumundakı çıxışlarında iki ölkə arasında əlaqələrin dünəninə baxış əsasında qarşıdakı dövrün hədəfləri açıqlandı, səfərin əməkdaşlığın inkişafında rolu xüsusi qeyd edildi. Dövlətimizin başçısı İlham Əliyev "Əminəm ki, səfər ölkələrimiz arasında ikitərəfli münasibətləri gücləndirəcək, müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar yaradacaq" söyləyərək onu da əlavə etdi ki, əməkdaşlığımızın çox güclü çərçivəsi var. Doqquz il əvvəl ölkələrimiz arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə hüquqi çərçivəni yaradır və münasibətlərimizi ən yüksək səviyyəyə qaldırır. Biz elə bunun əsasında tərəfdaşlığı müxtəlif sahələrdə inkişaf etdirmək üçün sıx çalışmışıq.

Müzakirə edilən əsas məsələlərdən biri Cənubi Qafqaz və Baltik regionunda təhlükəsizlik, regional inkişaf və ətrafda baş verən hadisələr oldu. Cənab İlham Əliyev latviyalı həmkarına Azərbaycanla Ermənistan arasında çox perspektivli sülh prosesinə aid ən son məlumatları verdi. Bildirdi ki, əslində, ötən ilin avqust ayından etibarən hər iki ölkə Prezident Tramp tərəfindən Ağ Evə dəvət olunandan və Birgə Bəyanat imzalanandan sonra və xarici işlər nazirləri sülh sazişinin mətnini parafladıqdan sonra bizdə de-fakto sülh var. Həmin vaxtdan etibarən sülh prosesində xeyli müsbət dinamika yaşandı, o cümlədən ticarət başlandı, xüsusən də Azərbaycandan Ermənistana yanacaq məhsulları göndərildi, vətəndaş cəmiyyəti və media nümayəndələri arasında görüşlər keçirildi və bütün bunlar uzun illər müharibə şəraitində olan ölkələr arasında həmçinin normal mühitin yaradılmasına töhfə verir. Bir sözlə, bu nümunə göstərir ki, məhz siyasi iradə və siyasi müdriklik, o cümlədən gələcəyə strateji baxışlar hadisələri təyin edir: siz ya sonsuz müharibəni və ya müharibələri davam etdirirsiniz, yaxud beynəlxalq hüquq əsasında istədiyinizə nail olduqda birdəfəlik dayanırsınız və sülhə hazır olduğunuzu nümayiş etdirirsiniz. Düşünürəm ki, həmin nümunə hələ də müharibədə olan ölkələr üçün vacib ola bilər.

Azərbaycanla Latviya arasında münasibətlərin çox möhkəm çərçivəyə əsaslanmasında dövlət başçılarının şəxsi münasibətləri mühüm rol oynayır. Prezident İlham Əliyev mətbuata birgə bəyanatlarında da bu məqama xüsusi diqqət yönəltdi. Cənab İlham Əliyevin “Biz bir-birimizi uzun illərdir ki, tanıyırıq və fikrimcə, bəlkə də 20 ilə yaxındır. Şəxsən mən çox şadam ki, əziz dostumuzu və onun nümayəndə heyətini Bakıda qəbul edirəm” fikirlərinin davamı olaraq Latviya Prezidenti Edqars Rinkeviçs

bildirdi ki, aramızda olan dostluq siyasi, iqtisadi və mədəni mübadilənin aparılmasına şərait yaradır. Azərbaycanda ilk dəfə 2002-ci ildə olduğunu və ondan sonrakı dövrdə ölkəmizə dəfələrlə səfər etdiyini bildirən Latviya Prezidenti hər zaman ölkəmizi, xüsusi ilə də paytaxt Bakımızın inkişaf etdiyini gördükdə heyran qaldığını xüsusi vurğuladı. Onu da qeyd etdi ki, biz Azərbaycanın xüsusi ilə Transxəzər nəqliyyat dəhlizində, həmçinin energetika sahəsində rolunu həm Latviya, həm də ümumilikdə Avropa İttifaqı üçün strateji bir dəyər kimi görürük.

Ölkələr arasında əlaqələrin inkişafında iqtisadi amilin roluna da diqqəti yönəldib. Azərbaycan–Latviya biznes-forumunda səsləndirilən fikirlər, qarşıya qoyulan hədəflər iki ölkənin iqtisadi əlaqələrinin aydın mənzərəsini təqdim etdi. Dövlət başçısı İlham Əliyev Azərbaycanın malik olduğu iqtisadi imkanlardan geniş bəhs etdi. Vurğuladı ki, biz Azərbaycanda ölkəni tamamilə neft və qazdan asılı olan bir dövlətdən öz iqtisadiyyatının şaxələndirilməsi prosesi ilə fəxr edə biləcək bir ölkəyə çevirmək üçün çox işlər gördük. Ümumi daxili məhsulun strukturuna nəzər salsaq, son dörd-beş il ərzində sürətli artımın şahidi olarıq. ÜDM-də qeyri-neft sənayesinin payı 50 faizdən artaraq 70 faizi keçib və bu proses davam edir. Bu isə o deməkdir ki, iqtisadiyyatın şaxələndirilməsi artıq reallıqdır. Son iyirmi il ərzində iqtisadiyyatımıza 350 milyard ABŞ dollarından çox investisiya qoyulub ki, bunun da təqribən yarısı – 170 milyard ABŞ dolları xarici mənbələrdən gələn investisiyalardır. Beləliklə, investisiya üçün əlverişli mühitin yaradılması qarşımızda duran hədəflərdən biri idi və buna böyük mənada nail olunub. Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan təbii qaz alır. Ölkələrin ümumi sayı 16-dır və bu göstərici üzrə biz dünyada birinci yerdəyik.

Biznes-forumda hər iki ölkənin ayrı-ayrı sahələrdə malik olduqları imkanlar fonunda əlaqələrimizin gələcək inkişafı geniş müzakirə olundu. Konkret nəticələrin əldə olunacağına böyük əminlik ifadə edildi.

Səfər çərçivəsində əlaqələrin inkişafında hüquqi baza rolunu oynayan sənədlərin imzalanması da diqqətdə oldu. Azərbaycan Prezidenti İlham Əliyev və Latviya Prezidenti Edqars Rinkeviçs Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyanatını qəbul etdilər. Həmçinin müxtəlif sahələrdə əməkdaşlığın möhkəmləndirilməsində əhəmiyyətli rol oynayacaq sənədlər də imzalandı.

Azərbaycan nəinki Latviya, o cümlədən bir çox Avropa ölkələri üçün strateji tərəfdaşdır.

***

İkitərəfli əməkdaşlıq əlaqələrinin inkişafında əhəmiyyətli rol oynayan amillərdən biri qarşılıqlı səfərlərdir. Azərbaycanın xarici siyasətində ikitərəfli əməkdaşlığa və beynəlxalq təşkilatlar daxilində əlaqələrin inkişafına verdiyi önəm bugünkü reallıqlarda özünün aydın ifadəsini tapır. Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, son illərdə Prezident İlham Əliyevin Azərbaycana səfər edən bu və ya digər ölkələrin dövlət başçıları ilə görüşlərini paytaxt Bakı ilə yanaşı, bölgələrimizdə, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə keçirməsi bir ənənəyə çevrilib. Aprelin 25-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycanda işgüzar səfərdə oldu. Qəbələdə Prezident İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə təkbətək və geniş tərkibdə görüşü oldu. Söhbət zamanı dövlətimizin başçısının Volodimir Zelenski ilə əvvəlki görüşləri məmnunluqla xatırlandı, Ukrayna Prezidentinin ölkəmizə bu səfərinin ikitərəfli əməkdaşlıq məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminlik ifadə

edildi. Əməkdaşlığın bir çox istiqamətdə, o cümlədən enerji sahəsində genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı, kənd təsərrüfatı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olundu, Hökumətlərarası Komissiyanın fəaliyyətinə toxunuldu.

Ölkəmizin Ukraynaya humanitar dəstəyini, eyni zamanda, Azərbaycan dövləti tərəfindən ukraynalı uşaqlara olan diqqət və qayğını yüksək qiymətləndirən Ukrayna Prezidenti bütün bunlara görə İlham Əliyevə minnətdarlığını bildirdi. Tezliklə bir qrup ukraynalı tələbənin reabilitasiya məqsədi ilə, həmçinin Azərbaycanın mədəniyyət və incəsənəti ilə tanış olması üçün ölkəmizə səfərinin nəzərdə tutulduğu vurğulandı.

Qeyd edək ki, Azərbaycan və Ukrayna arasında ali səviyyədə təşəkkül tapmış fəal siyasi dialoq ikitərəfli əməkdaşlığımızın iqtisadi, ticarət, humanitar, mədəniyyət və digər sahələrdə inkişafına təkan verir, münasibətlərimizin məzmunca zənginləşməsinə zəmin yaradır. Azərbaycan–Ukrayna əlaqələri ikitərəfli formatla yanaşı, beynəlxalq təşkilatlar çərçivəsində də uğurla davam etdirilir. BMT, ATƏT, GUAM, QDİƏT və digər beynəlxalq platformalarda ölkələrimiz bir-birinə qarşılıqlı dəstək nümayiş etdirirlər.

Azərbaycan və Ukrayna arasında 1992-ci ildən əsası qoyulan diplomatik əlaqələr bu gün də uğurla davam etdirilir. Bu onilliklər ərzində prezidentlərin, eləcə də hökumət başçılarının, parlament sədrlərinin, xarici işlər nazirlərinin və digər hökumət nümayəndələrinin qarşılıqlı səfərləri münasibətləri yüksək səviyyəyə qaldırıb. Prezident İlham Əliyev 2022-ci ilin yanvarında Ukraynaya işgüzar, Ukrayna Prezidenti Volodimir Zelenski 2019-cu ilin dekabrında Azərbaycana rəsmi səfər etmişdir. Azərbaycan–Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupu 1995-ci ildən fəaliyyət

göstərir. Azərbaycan və Ukrayna prezidentlərinin mətbuata birgə bəyanatlarında dövlətimizin başçısı əlaqələrimizin inkişafında əhəmiyyətli rol oynayan addımlara, eyni zamanda, imzalanan sənədlərə xüsusi diqqət yönəltdi. Bildirdi ki, əməkdaşlığımızın çox güclü siyasi təməli vardır. 2008-ci ildə Kiyevdə, 2011-ci ildə Bakıda strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır və bunlar çox güclü siyasi sənədlərdir. O sənədlərdə ölkələrimizin qarşılıqlı olaraq ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı məsələləri öz əksini tapmışdır. Azərbaycan və Ukrayna bütün beynəlxalq təşkilatlarda qarşılıqlı olaraq ölkələrin suverenliyini, ərazi bütövlüyünü dəstəkləyir və dəstəkləyəcəkdir. Keçən il iki mühüm hadisə baş vermişdir. Bakıda xarici işlər nazirliklərinin məsləhətləşmələri və Hökumətlərarası Komissiyanın iclası keçirilmişdir. Budəfəki səfər zamanı söhbət əsnasında bu tədbirlərin Ukraynada növbəti dövrdə keçirilməsi haqqında da fikir mübadiləsi aparıldı. Azərbaycan və Ukrayna bu gün bir çox istiqamətlər üzrə uğurla əməkdaşlıq edir. Sözügedən səfər bunu bir daha təsdiqlədi.

Azərbaycan xarici siyasətini, ikitərəfli və çoxtərəfli əlaqələrini öz milli maraqlarına uyğun qurur və həyata keçirir. Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünün və suverenliyinin tərəfdarıdır. Hər zaman ədalətin və beynəlxalq hüququn yanında olan ölkəmiz bütün münaqişəli məsələlərin bu prinsiplər əsasında həllinə səy göstərir. Azərbaycan ərazi bütövlüyünün pozulmasından on illər əziyyət çəkib. İstər 30 illik işğal, istərsə də tarixi Zəfərimizdən, suverenliyimizin bərpasından sonrakı dövrdə sülhə, təhlükəsizliyə, əməkdaşlığa çağırışlar Azərbaycanın xarici siyasətində əsas yer tutub. Ölkəmiz Ukrayna–Rusiya münaqişəsinin iki dövlət arasında qarşılıqlı dialoq və anlaşma şəraitində həllinin tərəfdarıdır. Azərbaycan

regionun diplomatik paytaxtı olaraq, münaqişəyə hər hansı subyektiv baxışı olmayan ölkə kimi gələcəkdə bu münaqişənin sülh yolu ilə həlli üçün platforma rolunu oynaya bilər. Mətbuata bəyanatında bu prosesdə vasitəçilik edən tərəfdaşlara, Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq edən Ukrayna Prezidenti vurğuladı ki, bizim üçtərəfli və digər formatda danışıqlarımız oldu. Onlardan bəziləri Türkiyədə baş tutdu, daha sonra isə amerikalı tərəfdaşlarımızla Cenevrədə görüşdük. Həmçinin istərdik ki, danışıqlarımızı Azərbaycanda aparaq. Bir halda ki, əgər bu diplomatiyanı həmçinin Rusiya tərəfi də seçərsə.

Prezidentlərin mətbuata birgə bəyanatları iki ölkənin münasibətlərinin gələcək inkişafının aydın mənzərəsini təqdim edir. Cənab İlham Əliyev bildirdi ki, görüşlərimiz müntəzəm xarakter daşıyır. Son dörd il ərzində bu bizim yeddinci görüşümüzdür. Son görüşlər beynəlxalq təşkilatların toplantıları çərçivəsində baş vermişdir. Ukrayna Prezidentinin Azərbaycana ilk dəfə 2019-cu ildə səfər etdiyini xatırladan dövlətimizin başçısı İlham Əliyev qeyd etdi ki, bizim şəxsi münasibətlərimiz də o vaxtdan başlayır və bu gün də uğurla davam edir. Son dörd il ərzində prezidentlər səviyyəsində yeddi görüşün keçirilməsi mühüm göstəricidir. Bu, əlaqələrimizin nə qədər dinamik olmasından xəbər verir. Biz bu gün qarşılıqlı hörmətdən, qarşılıqlı maraqların təmin edilməsindən danışırıq. Belə bir əminlik də ifadə olundu ki, bugünkü səfər Azərbaycan–Ukrayna dostluq əlaqələrinin inkişafına növbəti mühüm töhfə olacaqdır.

Əlaqələrin inkişafında iqtisadi amilin önəmi qeyd edilərək vurğulanıb ki, iki ölkə arasında enerji sahəsində əməkdaşlığın inkişafının potensialı var. Azərbaycanın enerji sahəsində əməkdaşlıq əlaqələri geniş coğrafiyanı əhatə edir. SOCAR-ın Ukraynada yanacaqdoldurma məntəqələri fəaliyyət

göstərir. Bu da ikitərəfli biznes əlaqələrinin inkişafına töhfədir. Cənab İlham Əliyev mətbuata bəyanatında bildirdi ki, burada həm əldə edilmiş nailiyyətlər var, SOCAR Ukraynada uzun illərdir ki, uğurla fəaliyyət göstərir, eyni zamanda, çox gözəl perspektivlər, birgə layihələr var. Birgə təşəbbüslər, o cümlədən sərmayə qoyuluşu ilə bağlı məsələlər səfər zamanı ətraflı müzakirə edildi. Ticarət dövriyyəsinin artırılması məsələləri də gündəliyin mərkəzindədir. Ticarət dövriyyəmiz yarım milyard dolları ötüb. Növbəti illərdə bu rəqəm daha da artacaq. Çünki buna da böyük imkanlar var.

Bütün bunlar ölkələrimiz arasında dostluq xarakteri daşıyan münasibətlərin, uzunmüddətli müttəfiqlik əlaqələrinin olduğunu göstərir.

**Nizami Səfərov.** XX əsrin birinci yarısında milli, irqi, dini, etnik qrupların qismən və ya bütövlükdə məhv edilməsi niyyəti ilə törədilən cinayət olaraq beynəlxalq hüquqi leksikona daxil edilən soyqırımı konsepsiyası bəzi dövlətlər, beynəlxalq qurumlar və bir sıra siyasətçilər tərəfindən istismar obyektinə çevrilmişdir. Çox təəssüf ki, açıq-aşkar tarixi hadisələrin təhrif edilərək təqdim olunması artıq adi hala çevrilmişdir. Qeyd edilənlərin növbəti nümunəsi Nyu-York meri Zohran  Mamdaninin “X” platformasında 1915-ci il qondarma “erməni soyqırımı” və həmçinin 2020–2023-cü illərdə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etmək səyləri barədə qərəzli və həqiqətə söykənməyən fikirləridir.

Osmanlı Türkiyəsi ərazisində Birinci Dünya müharibəsi dönəmində baş verən hadisələrin, ümumiyyətlə, soyqırımı ilə heç bir əlaqəsi olmadığı siyasi və hüquqi faktdır və qardaş ölkənin arxivlərində mövcud olan sənədlər bunu əyani şəkildə təsdiq edir. Bu məsələ ilə bağlı mən, sadəcə, iki fakta müraciət etmək istərdim. Amerika Birləşmiş Ştatlarının diplomatik

yazışmalarında saxlanılan Dövlət katibi Robert Lensinqin Prezident Vudro Vilsona ünvanladığı 1916-cı il tarixli məktubda qeyd edilirdi ki, erməni əhalisinin müharibə zonasında yerləşməsi və onların Osmanlı hökumətinə olan etinasız münasibəti bu əhalinin köçürülməsinə bəraət qazandırır. Digər tarixi fakt isə ondan ibarətdir ki, 1915-ci ildə ermənilər qiyam törədərək vətəndaşları olduqları Türkiyə əleyhinə Antanta dövlətlərinə qoşulmuşlar və bu faktı 1919-cu ildə Paris Sülh Konfransında dəfələrlə təsdiq etmişdilər.

Nyu-York merinin digər açıqlamaları isə Cənubi Qafqaz regionunda baş vermiş tarixi hadisələrin və mövcud reallıqların təhrif olunmuş formada təqdim edilməsi kimi qiymətləndirilməlidir. Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 51-ci maddəsində təsbit edilən özünümüdafiə hüququnun gerçəkləşdirilməsi və Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin öz gücümüzə icra edilməsi, 2023-cü ildə lokal antiterror əməliyyatının həyata keçirilməsi birmənalı olaraq beynəlxalq hüquq çərçivəsindədir və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren əraziləri daxilində baş vermişdir. Gerçək beynəlxalq cinayətlərə gəldikdə isə məhz Azərbaycan əhalisi etnik təmizləmələr və soyqırımına məruz qalmışdır və bu yaxınlarda həyata keçirilən məhkəmə prosesləri nəticəsində müharibə canilərinin cəzalandırılması bunu hüquqi müstəvidə bir daha təsdiq etmişdir.